## "İLHAM ƏLİYEV. İNKİŞAF - MƏQSƏDİMİZDİR" ÇOXCİLDLİYİNİN 73-CÜ KİTABI ÇAPDAN ÇIXIB

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 73-cü kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 73-cü kitabındakı materiallar 2016-cı ilin fevralından aprel ayınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın ev sahibliyi etdiyi tədbirlərdən biri BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu olub. Prezident İlham Əliyev Forumda söylədiyi nitqində deyib: "Bu gün biz bəzi ölkələrin qaçqınlarla bağlı üzləşdiyi vəziyyəti aydın şəkildə anlayırıq. Bu, həqiqətən də humanitar fəlakətdir və bütün beynəlxalq ictimaiyyət bu məsələlərin həllində iştirak etməlidir. Ən çox qaçqın qəbul etmiş ölkələr hazırda dəstəklənməlidir - yalnız sözlə deyil, ciddi maliyyə yardımları ilə...



Bax səh. 3

## HƏYATA KEÇİRİLƏN MƏQSƏDYÖNLÜ SİYASƏT SAYƏSİNDƏ AZƏRBAYCAN BEYNƏLXALQ BİRLİYİN LAYİQLİ ÜZVÜNƏ ÇEVRİLİB

Müasir dövrdə ölkələrin, xalqların siyasi, iqtisadi, humanitar və digər müstəvilərdə qarşılıqlı əməkdaşlığı ilə bağlı çağırışların aktuallığı daha da artıb. Bu baxımdan Azərbaycanın reallıqları diqqətəlayiqdir. Belə ki, milli maraqlara əsaslanan və ölkənin hərtərəfli inkişafını hədəfləyən məqsədyönlü daxili siyasət həyata keçirən Azərbaycan, eyni zamanda çoxvektorlu fəal xarici siyasət kursuna malikdir...



Bax səh. 6




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 01 dekabr 2018-ci il, şənbə / № 228 (5355). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Ölkəmizdə aparılan islahatlar aqrar sektorun uzunmüddətli və dayanıqlı inkişafını təmin edir



*Prezident İlham Əliyev: Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Gürcüstanın yeni seçilmiş Prezidenti xanım Salome Zurabişviliyə təbrik məktubu göndərib.

* * *

Prezident İlham Əliyev Rumıniyanın Prezidenti Klaus Verner İohannisə təbrik məktubu göndərib.

* * *

Prezident İlham Əliyev kiçik və orta elektrik stansiyalarının təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında Sərəncam imzalayıb.

### "Media və mənəvi dəyərlər" mövzusunda yazı müsabiqəsinin qalibləri mükafatlandırılıblar

Noyabrın 30-da Bakıda "Media və mənəvi dəyərlər" mövzusunda konfrans və eyniadlı yazı müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə mətbuat nümayəndələri, qəzet redaktorları, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb. Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov konfransda çıxış edərək Fondun gördüyü işlər və müsabiqənin əhəmiyyəti barəsində danışıb. Bildirib ki, mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri...

Bax səh. 5

### "Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı" adlı ixtisasartırma kursu başa çatıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) və ADA Universitetinin əməkdaşlıq çərçivəsində Asiyanın və Afrikanın bir sıra ölkələrinin diplomatları üçün həyata keçirdikləri...



Bax səh. 4



## NAZİRLƏR KABİNETİ YANINDA YETKİNLİK YAŞINA ÇATMAYANLARIN İŞLƏRİ VƏ HÜQUQLARININ MÜDAFİƏSİ ÜZRƏ KOMİSSİYANIN İCLASI KEÇİRİLİB

Noyabrın 30-da Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın...

Bax səh. 3

## REGİONLARDA YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN QAZLAŞDIRILMASI İŞİ UĞURLA DAVAM EDİR

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanda həyata keçirilən siyasət bütün sahələrin tərəqqisinə səbəb olub. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işlər xüsusi önəm kəsb edir. Məhz bu proqramlar çərçivəsində son 15 il ərzində regionlarda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, həmçinin bölgələrdə istər qazlaşdırma, istər elektrik enerjisi ilə təminat, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində mühüm addımlar atılıb. Son illərdə Azərbaycanın güclü infrastruktur təminatına malik ölkəyə çevrilməsi istiqamətində görülən işlər qazlaşdırma sahəsində də mühüm uğurların əldə edilməsinə səbəb olub. 2004-cü ildən ötən dövr ərzində Azərbaycanda qazlaşdırma, demək olar ki, iki dəfəyə yaxın artıb. Artıq proses indiyədək qazlaşdırılmayan və yaxud müəyyən səbəblərdən qaz təminatı dayandırılan...

Bax səh. 8



## 2019-CU İLİN BÜDCƏ ZƏRFİNƏ DAXİL OLAN QANUNLAR QƏBUL EDİLİB

Noyabrın 30-da Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və hökumətin üzvləri iştirak ediblər. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, ilk dəfədir büdcə zərfinə daxil olan...

Bax səh. 3

### Azərbaycanın multikulturalizm ənənələri İsveçrə ictimaiyyətinə təqdim olunub

Azərbaycanın İsveçrədəki səfirliyinin təşkilatçılığı ilə bu ölkənin yeganə ikidilli ali təhsil müəssisəsi olan Friburq Universitetinin sosial elmlər fakültəsində Azərbaycan Respublikası Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun "Azərbaycanda dövlət-din münasibətləri və dini siyasət" mövzusunda mühazirəsi dinlənilib. AZƏRTAC xəbər verir ki, Friburq Universitetinin professor-müəllim heyətinin və tələbələrinin iştirak etdikləri mühazirədə E.Nəcəfov auditoriyanı Azərbaycanın multikulturalizm ənənələri və bu fenomenin səbəbləri barədə məlumatlandırıb, ölkəmizdə mövcud olan müxtəlif dini icmalar, dövlət-din münasibətlərini...

Bax səh. 4

### Ədliyyə Nazirliyində dövlət təltifləri təqdim olunub

Noyabrın 30-da Ədliyyə Nazirliyində Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə dövlət təltiflərinə layiq bilinmiş ədliyyə işçilərinə təltiflərin təqdim olunması...



Bax səh. 3

### Culfa rayonunun Qazançı kəndi abadlaşan kəndlərimiz sırasına daxil oldu

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Naxçıvanda aparılan işlər çox yüksək qiymətə layiqdir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə...



Bax səh. 4

### Azərbaycanın media təmsilçiləri "Anadolu" Agentliyində olublar

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə respublikanın aparıcı media təmsilçilərindən...



Bax səh. 5

### Azərbaycanda təhsilin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir

...Noyabrın 28-də Bakıda keçirilən Azərbaycan müəllimlərinin XV qurultayında təhsilin inkişafı istiqamətində bir çox fundamental əhəmiyyətli məsələlər...



Bax səh. 6

# Ölkəmizdə aparılan islahatlar aqrar sektorun uzunmüddətli və dayanıqlı inkişafını təmin edir

## *__Prezident İlham Əliyev:__ Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq*

*Müstəqil Azərbaycanın dünyada böyük maraqla izlənilən nümunəvi inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ölkədə genişməzmunlu islahatların həyata keçirilməsi ilə bağlıdır. Respublikamız öz siyasətini zamanın dəyişən tələblərinə məharətlə uzlaşdırır. Belə ki, ölkəmizdə prioritet sahələrin üstün inkişafının təmin edilməsinə hesablanan islahatlar həyata keçirilərkən mütləq qlobal miqyasda meydana çıxan yeni trendlər və çağırışlar nəzərə alınır, eyni zamanda, mövcud daxili potensial və cəmiyyətin sosial sifarişləri əsas götürülür. Belə bir rasional vəhdətin təmin edilməsi öz növbəsində islahatların uğurla həyata keçirilməsini və bunun nəticəsi olaraq respublikamızın bütün istiqamətlərdə böyük uğurlara imza atmasını şərtləndirir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ölkəmizdə islahatların davamlı şəkildə həyata keçirilməsinə xüsusi diqqət çəkib. Bu baxımdan cari il də istisna təşkil etməyib.* ***"2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır",*** *- deyə dövlət başçısı vurğulayıb.*



### ÖLKƏDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI DAİM DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

Son illərdə dünyada müşahidə edilən yeni reallıqlar fonunda meydana çıxan qlobal çağırışlardan biri aqrar sektorun intensiv inkişafının təmin edilməsi zərurəti ilə bağlıdır. Verilən məlumatlara əsasən, 2050-ci ilədək Yer kürəsinin əhalisinin sayının 9,3 milyard nəfərə çatacağı gözlənilir. Bu isə ərzağa olan tələbatın indiki səviyyə ilə müqayisədə 70 faiz artması deməkdir. Torpaq və su resurslarının məhdudluğu fonunda qlobal ərzaq təchizatının əhəmiyyətli dərəcədə artması təmin olunmalıdır. Təsadüfi deyildir ki, 2015-ci ildə BMT-nin qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" sənədində aclığın ləğv edilməsi, qidalanmanın yaxşılaşdırılması, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi əsas məqsədlərdən biri kimi müəyyənləşdirilib.

BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərinə qoşulan Azərbaycan da aqrar sektoru intensiv metodlarla inkişaf etdirməyi, məqsədyönlü islahatlarla bu sektorda istehsal imkanlarını artırmağı hədəfləyib. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq aqrar sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır və ölkədə qeyri-neft iqtisadiyyatının üstün inkişafının təmin olunmasına hesablanan islahatların bir çoxu məhz kənd təsərrüfatını əhatə edir.

Hazırda respublikamızda məhsuldarlığın artırılması hesabına rəqabətqabiliyyətliliyin və ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrar sektorda əsas vəzifə kimi qarşıya qoyulub. Bu isə bütün istiqamətlərdə innovativ istehsal və idarəetmə texnologiyalarının, mütərəqqi metod və həllərin geniş tətbiqini tələb edir. Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov KİV-ə verdiyi müsahibəsində bildirib ki, aqrar sahədə inkişafın davamlılığını təmin etmək üçün müəyyənləşdirilmiş islahatlar elmi yanaşmalara söykənməklə fermerlərin və kənd zəhmətkeşlərinin mənafeyinə xidmət etmək strategiyasına əsaslanır. Bunu nəzərə alaraq Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətində 3 əsas prinsipi - kəndli və fermerlərə yaxınlıq, səmərəli idarəçilik və innovasiyaların tətbiqini rəhbər tutur. Qurum rəsmisinin məlumatına əsasən, aqrar sahədə təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılması və innovativ inkişafı vəzifələrinin icrasını təmin etmək məqsədilə nazirliyin tabeliyində publik hüquqi şəxs statuslu Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb. Mərkəz beynəlxalq çağırışlara cavab verən və elmi yanaşmalara əsaslanan tədqiqat və analitik-informasiya xidmətlərinin göstərilməsi ilə məşğul olan peşəkar qurum kimi formalaşdırılır. Aqraryönümlü elmi müəssisələrin təminatının gücləndirilməsi, innovativ yeniliklərin fermerlərə çatdırılması, bu qurumların məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi istiqamətində həyata keçirilən institusional islahatlar çərçivəsində nazirliyin tabeliyində Aqrar Elm və İnnovasiya Mərkəzinin yaradılması da təqdirəlayiq haldır. Aparılan islahatlara uyğun olaraq bütün elmi tədqiqat institutlarının inzibati-laboratoriya binalarının əsaslı təmiri başa çatdırılıb. İnstitutlarda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi üzrə aqroekologiya və aqrokimya, genetika və seleksiya, ilkin toxumçuluq və tingçilik, xəstəlik və zərərvericilərə nəzarət laboratoriyaları yaradılıb, istixana və toxum emalı məntəqələri tikilib, müasir və məhsuldar meyvə bağları salınıb. Elmi tədqiqat institutlarında yaradılan potensial hesabına istehsalçılar yüksək məhsuldarlığa malik toxum və tinglərlə təmin ediləcək. Eyni zamanda, fermerlərin yüksək kondisiyalı və məhsuldar buğda, arpa və qarğıdalı toxumları ilə təmin edilməsi məqsədilə Xaçmaz, Şəki, Ağcabədi, Qobustan və Tovuz rayonlarında dənli bitki toxumlarının emalı müəssisələri qurulur.

Aparılan islahatlar çərçivəsində peşəkar kadrların hazırlanması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə ölkənin aqrar kadr hazırlığının mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) təlim planları və proqramları dünyanın qabaqcıl universitetləri ilə əməkdaşlıq çərçivəsində təkmilləşdirilir. Bütün laboratoriyalar tamamilə yenilənərək müasir avadanlıqlarla təchiz edilib, yeni təcrübə bazaları yaradılıb, peşəkar mütəxəssislərin hazırlanması məqsədilə təşviqedici addımlar atılıb.

İndiyədək Kənd Təsərrüfatı Nazirliyi "Fermerlərə təlim və məsləhət xidmətlərinin təşkili üzrə Strategiya" hazırlayıb. Bəhs olunan strategiyaya uyğun olaraq fermerlərə peşəkar təlimlərin və məlumatlandırma tədbirlərinin keçirilməsinə başlanılıb. Eyni zamanda, Kənd təsərrüfatı sahəsi üzrə modernləşdirilmiş elmi tədqiqatlar, təhsil, təlim və informasiya məsləhət xidmətləri sisteminin formalaşdırılması istiqamətində fəaliyyətlərin sistemli şəkildə həyata keçirilməsi məqsədilə "Aqrar Elm və Təhsilin İnkişafı üzrə Dövlət Proqramı" hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

Fermerlərə göstərilən dövlət qayğısının institusional mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sahədə xidmətyönümlü fəaliyyətə üstünlüyün verilməsi, fermerlərlə işin gücləndirilməsi, innovasiyadan istifadə ilə bağlı maarifləndirmənin həyata keçirilməsi məqsədilə Azərbaycan Prezidentinin müvafiq Fərmanına uyğun olaraq rayon (şəhər) kənd təsərrüfatı idarələrinin əsasında Dövlət Aqrar İnkişaf mərkəzləri (DAİM) yaradılıb. Bununla yanaşı, nazirlik yanında Fermerlər Şurası və Aqrar Məşvərət Şurası təsis edilib. DAİM-lərin və burada fəaliyyət göstərən Fermer Şuralarının formalaşdırılması prosesi yekunlaşıb.

Yeni şəraitdə kənd təsərrüfatında həyata keçirilən islahat tədbirlərinin bir qismi isə aqrar ticarət sahəsini əhatə edir. Fermerlər üçün bazar şərtlərinin yaxşılaşdırılması, məhsulların satılmasına və satışda yaranan problemlərin aradan qaldırılmasına yardımın göstərilməsi məqsədilə nazirlik yanında Dövlət Aqrar Ticarət Şirkətinin yaradılması bu istiqamətdə atılan çox mühüm addımdır. Prezident İlham Əliyev aqrar sektorda həyata keçirilən islahatları yüksək dəyərləndirib. **"Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Mənə məruzə edildi, mən bu islahatları dəstəklədim. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik",** - deyə dövlət başçısı vurğulayıb.

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixində imzaladığı müvafiq Fərmanla Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin təsdiqlənməsi respublikamızda postneft dövründə aqrar sektorun inkişafına ən yüksək səviyyədə siyasi iradə nümayiş etdirildiyini bir daha təsdiqləyir. Sənəddə vurğulandığı kimi, Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Respublikamızda aqrar sektorun inkişafının daim diqqət mərkəzində saxlanılması, istehsal imkanlarının artırılmasını hədəfləyən islahatların uğurla həyata keçirilməsi, fermerlərə dəstək tədbirlərinin əhatə dairəsinin mütəmadi olaraq genişləndirilməsi öz növbəsində kənd təsərrüfatında yüksək nəticələrin qazanılmasını şərtləndirib. Son 15 ildə biz ölkənin aqrar sektorunda davamlı inkişafı müşahidə edirik. 2003-2017-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının real artımı ümumilikdə 166,4 faiz, o cümlədən bitkiçilik sahəsində 156,7 faiz, heyvandarlıq sahəsində isə 177,8 faiz təşkil edib. Kənd təsərrüfatında inkişaf templəri 2018-ci ilin 9 ayında da yüksək olub. Prezident İlham Əliyev bəhs olunan dövrdə aqrar sektorda qazanılan uğurlardan məmnunluğunu ifadə edərək vurğulayıb: **"Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir".**

Bütövlükdə, Azərbaycanın regionlarında aqrar sektorun inkişafı üçün geniş perspektivlər mövcuddur. Şübhə yoxdur ki, başlanan və miqyası getdikcə daha da genişləndirilən islahatlar respublikamızda həm iqtisadi, həm də böyük sosial əhəmiyyət daşıyan kənd təsərrüfatının bundan sonra da dinamik inkişafını təmin edəcək. **"Əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir",** - deyə dövlət başçısı vurğulayıb.

### AQRAR SEKTORDA MÜASİR TƏSƏRRÜFATLARIN YARADILMASI GENİŞ VÜSƏT ALIB

Respublikamızda aparılan islahatlara uyğun olaraq aqrar sektorda müasir iri təsərrüfatların yaradılması geniş vüsət alıb. Qabaqcıl texnologiyalar əsasında yaradılan iri fermer təsərrüfatları və aqroparklar son illərdə ölkə üzrə aqrar sektorun inkişafında, istehsal və ixrac imkanlarının genişlənməsində çox mühüm rol oynayır. İqtisadiyyat naziri Şahin Mustafayevin məlumatına əsasən, hazırda respublikada 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın, o cümlədən 44 min hektar ərazidə 17 müasir cins heyvandarlıq kompleksinin və 148 min hektar ərazidə 28 iri bitkiçilik təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə 330 milyon manat dövlət maliyyə dəstəyi göstərilib ki, bunun da 219 milyon manatı infrastrukturun yaradılmasına yönəldilən dövlət investisiya qoyuluşu, 111 milyon manatı isə 17 aqroparka verilmiş güzəştli kreditlərdir. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib.

İqtisadiyyat Nazirliyinin rəsmisi bildirib ki, artıq Xaçmaz, Şəmkir, Cəlilabad, Goranboy və İsmayıllı rayonlarında 5 aqropark istifadəyə verilib. Bundan başqa, Qaxda 2100 hektarda heyvandarlıq, əkinçilik və bağçılıq, Tovuzda 550 hektarda heyvandarlıq və əkinçilik, 12 min hektarda taxılçılıq, Salyanda 3 min hektarda heyvandarlıq və əkinçilik, Hacıqabul və Şamaxı rayonlarında 4300 hektarda heyvandarlıq və əkinçilik, Samuxda 5 min hektarda taxılçılıq, Hacıqabulda 27 min hektarda əkinçilik və 2 min hektarda heyvandarlıq və əkinçilik, Füzulidə 2500 hektarda taxılçılıq, Kürdəmirdə 2 min hektarda əkinçilik, Ucarda 2100 hektarda heyvandarlıq və taxılçılıq, Ağcabədidə 5 min hektarda əkinçilik və Qazaxda 1000 hektarda kartofçuluq olmaqla, ilin sonunadək 69 min hektar ərazidə 13 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Aqroparklar tam fəaliyyətə başladıqdan sonra il ərzində təqribən 600 milyon manat dəyərində kənd təsərrüfatı məhsulunun istehsal və emal olunması, ümumilikdə 10 minədək yeni iş yerinin yaradılması proqnozlaşdırılır.

İri təsərrüfatlar ilk növbədə əmək resurslarından, texnikadan daha səmərəli istifadə edilməsi, müasir suvarma sisteminin tətbiqi baxımından əlverişlidir. Nəticədə, becərilən hər hektar üzrə məhsuldarlıq artır. Prezident İlham Əliyev taxılçılıq üzrə yaradılan iri təsərrüfatlarda məhsuldarlığın artmasına diqqət çəkərək vurğulayıb: **"İri fermer təsərrüfatlarında, taxılçılıqda nəticələr çox yaxşıdır. Təqribən hektardan orta hesabla 50 sentner məhsul götürülür".**

### ÖLKƏDƏ OLAN TEXNİKALARDAN DAHA SƏMƏRƏLİ İSTİFADƏ ETMƏK MƏQSƏDİ İLƏ YENİ İNNOVATİV LAYİHƏ ÜZƏRİNDƏ İŞ APARILIR

Reallaşdırılan islahatlar çərçivəsində aqrar sektorda çalışan istehsalçılara göstərilən maddi dəstək tədbirlərinin miqyası da kifayət qədər genişdir. Belə ki, respublikamızda dövlət başçısının siyasi iradəsinə uyğun olaraq məhsul istehsalçılarının stimullaşdırılması, onların istehsal xərclərinin azaldılması və gəlir əldə etmək imkanlarının artırılması məqsədilə dövlət tərəfindən böyük həcmdə dəstək tədbirləri göstərilir. Qeyd etmək yerinə düşər ki, təkcə son 10 ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif dəstək tədbirləri üzrə 1.2 milyard manata yaxın subsidiya ödənilib. İ.Kərimov vurğulayıb ki, nazirlik tərəfindən yaradılmaqda olan "Elektron kənd təsərrüfatı" informasiya sisteminin tətbiqi aqrar sahədə, o cümlədən subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcək.

Aqrar sektorda istehsal imkanlarının genişləndirilməsində fermerlərin müxtəlif növ texnika ilə təminatlarının gücləndirilməsi də mühüm rol oynayır. Respublikamızda məhsul istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təchizatının daha da yaxşılaşdırılması üçün dəstək və xidmət tədbirləri daim nəzarətdə saxlanılır. İndiyədək "Aqrolizinq" ASC tərəfindən ölkəyə 44 minə yaxın kənd təsərrüfatı texnikası, 843 min ton mineral gübrə və 30 mindən artıq damazlıq heyvan gətirilərək güzəştli şərtlərlə lizinq yolu ilə istifadəyə verilib. Ölkəyə dünyada məşhur olan şirkətlərin istehsal etdikləri müasir texnikanın gətirilməsi 2018-ci ildə də davam etdirilib. Aqrar sektorda texnika ilə təchizatın böyük dərəcədə yaxşılaşdığını nəzərə çatdıran Prezident İlham Əliyev deyib: **"Doqquz ayda 5700 kənd təsərrüfatı texnikası alınıbdır. Texnika ilə təminat böyük dərəcədə yaxşılaşıb".**

Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, hazırda "Aqrolizinq" ASC-də ölkədə olan texnikalardan daha səmərəli istifadə etmək məqsədi ilə yeni innovativ layihə üzərində iş aparılır. Layihənin məqsədi ölkə üzrə vahid mexanizator reyestrinin formalaşdırılması, fermer-mexanizator münasibətlərinin elektronlaşdırılmasıdır. Yeni layihəyə əsasən hər hansı bir aqrotexniki xidmətə ehtiyacı olan fermer mobil aplikasiya vasitəsi ilə sistemə daxil olaraq ölkə üzrə mövcud texnika və mexanizatorlar üzrə axtarış verəcək və qeyd etdiyi axtarış parametrləri üzrə ona vahid bir sistemdən məlumatlar təqdim olunacaq. Növbəti mərhələdə fermer sistemdə müvafiq şərtlərlə tanış olaraq öz sifarişini verəcək.

### MÜVAFİQ TƏŞVİQ MEXANİZMİ FERMERLƏRDƏ MƏHSUL İXRACINA BÖYÜK MARAQ YARADIB

Azərbaycanın aqrar sektorun davamlı inkişafı ilə bağlı qarşıya qoyduğu hədəflərdən biri də ixracın genişləndirilməsidir. Bununla bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev bildirib: **"Mən kənd təsərrüfatı ilə bağlı yekun olaraq demək istəyirəm ki, ilk növbədə, biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik".**

Qeyd etmək yerinə düşər ki, Azərbaycan aqrar sektorda yetişdirilən məhsulları xarici bazarlara çıxartmaq üçün böyük üstünlüklərə malikdir. Belə ki, respublikamız bir sıra böyük istehlak bazarları ilə əhatə olunub. Həmin bazarlarda ölkəmizdə yetişdirilən yüksək keyfiyyətli meyvə-tərəvəz yaxşı tanınır və onlara böyük tələbat var. Eyni zamanda, respublikamızda aqrar sektorda ixracın genişləndirilməsinə güclü siyasi iradə göstərilir. İslahatlar çərçivəsində ixracın səmərəli təşviq mexanizminin işə salınması, "Made in Azerbaijan" brendinin yaradılması, gömrük prosedurlarının sadələşdirilməsi və bu kimi digər tədbirlər fermerlərdə məhsul ixracına böyük marağı təmin edir.

Respublikamızdan xarici dövlətlərə ixrac missiyalarının təşkili, beynəlxalq sərgilərdə Azərbaycanın vahid ölkə stendi ilə çıxış etməsi, ayrı-ayrı böyük şəhərlərdə ticarət evlərinin yaradılması da məhsullarımızın dünyada tanıdılmasında mühüm rol oynayır. Bir qədər bundan əvvəl respublikamızı təmsil edən 23 şirkətin məhsulları Fransanın Paris şəhərində keçirilmiş "Sial Paris" beynəlxalq ərzaq sərgisində "Made in Azerbaijan" vahid ölkə stendində təqdim olunub.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, sərgi çərçivəsində Azərbaycanın "A+Co" şirkətinin şərab və digər spirtli içkilərinin Norveçə, "Göygöl Şərab Zavodu"nun məhsullarının ABŞ, Komboca və Çinə ixracına dair ilkin razılıqlar əldə edilib. Azərbaycanın "Aznar", "Agro-Azerinvest", "Tovuz Baltiya" şirkətləri öz məhsullarının Braziliya, Ukrayna, Almaniya, Yaponiya, İtaliya, Çin, Rumıniya və Kombocaya ixracına dair danışıqlar aparıblar. Bundan başqa, Azərbaycanın "Mars-FK" şirkəti Fransaya 36 ton, Cibutiyə 18 ton, Polşaya həftədə 18 ton, "Kaslar" şirkəti isə Polşaya 40 ton fındıq ləpəsinin ixracına dair razılıq əldə ediblər. Yaxın vaxtlarda məhsulların müvafiq ölkələrə ixracına başlanılacaq. Sərgidə Azərbaycanın "Eco-Dry" şirkəti ilə Cibutinin "Al-Camil" şirkəti arasında alma ixracına dair sazişin imzalanması barədə razılığa gəlinib. Meyvə-tərəvəz istehsalı ilə məşğul olan "Azərstar" şirkəti öz məhsullarının Rusiya, İtaliya və Fransaya, "AZ-Granata" şirkəti isə İsrail, ABŞ-a nar şirəsi, İspaniyaya nar şərabı ixracına dair razılıq əldə ediblər. "Balxurma" şirkəti Fransa, Portuqaliya, Hollandiya, Almaniya, İsveçrə və Rumıniyadan olan topdansatış şirkətləri, həmçinin İtaliya, Dubay, Misir və Yaponiyada fəaliyyət göstərən "Horeca" mağazalar şəbəkəsi ilə məhsulların ixracına dair danışıqları davam etdirir.

**Mübariz ABDULLAYEV**

# “Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı” adlı ixtisasartırma kursu başa çatıb








Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) və ADA Universitetinin əməkdaşlıq çərçivəsində Asiyanın və Afrikanın bir sıra ölkələrinin diplomatları üçün həyata keçirdikləri “Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı” adlı ixtisasartırma kursu başa çatıb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kurs noyabrın 10-dan 30-dək davam edib. İxtisasartırma kursunda 16 ölkədən (Banqladeş, Cibuti, Çin, Efiopiya, Əfqanıstan, Fələstin, Keniya, Malayziya, Monqolustan, Mozambik, Myanmar, Nepal, Pakistan, Somali, Toqo və Vyetnam) diplomatlar iştirak ediblər.

Proqramda dünya siyasəti, beynəlxalq hüquq və təşkilatlar, iqtisadi və enerji məsələləri, ictimai diplomatiya, liderliyin inkişafı və azərbaycanşünaslıq (Azərbaycanın tarixi, geosiyasəti, enerji diplomatiyası, nəqliyyat-tranzit infrastrukturu, mədəniyyəti, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və s.) kimi mövzuları əhatə edən mühazirələr, işçi seminarlar təşkil edilib.

Əcnəbi diplomatlar, həmçinin Milli Məclisdə, Xarici İşlər Nazirliyində, İqtisadiyyat Nazirliyində, Dövlət Neft Fondunda, “ASAN xidmət” mərkəzində, Səngəçal neft terminalında, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanında olublar.

Proqramın bağlanış mərasimində Azərbaycanın xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev iştirakçılarla görüşüb, onlara proqramı müvəffəqiyyətlə bitirmələrinə dair sertifikatlar təqdim edib. Əcnəbi diplomatlar proqram haqqında müsbət təəssüratlarını bölüşərək, Azərbaycanı yaxından tanımaqdan xüsusi məmnun olduqlarını və burada əldə etdikləri bilik və bacarığın, təcrübənin onların gələcək fəaliyyəti üçün faydalı olacağını bildiriblər.

Qeyd edək ki, AIDA 2011-ci ildə təsis edilib. Agentliyin yaradılmasında məqsəd Azərbaycan Respublikası tərəfindən göstərilən beynəlxalq yardımların əlaqələndirilməsi, xarici ölkələr üçün humanitar və inkişafa yardım layihələrinin həyata keçirilməsidir.

# Azərbaycanın multikulturalizm ənənələri İsveçrə ictimaiyyətinə təqdim olunub



Azərbaycanın İsveçrədəki səfirliyinin təşkilatçılığı ilə bu ölkənin yeganə ikidilli ali təhsil müəssisəsi olan Friburq Universitetinin sosial elmlər fakültəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun “Azərbaycanda dövlət-din münasibətləri və dini siyasət” mövzusunda mühazirəsi dinlənilib.

AZƏRTAC xəbər verir ki, Friburq Universitetinin professor-müəllim heyətinin və tələbələrinin iştirak etdikləri mühazirədə E.Nəcəfov auditoriyanı Azərbaycanın multikulturalizm ənənələri və bu fenomenin səbəbləri barədə məlumatlandırıb, ölkəmizdə mövcud olan müxtəlif dini icmalar, dövlət-din münasibətlərini tənzimləyən qanunvericilik bazası və bu sahədə dövlət siyasətindən danışıb.

Mühazirədə qeyd edilib ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasəti, həm də xalqımızın həyat tərzidir. Azərbaycan etnik və dini zəmində münaqişənin yaşanmadığı nadir dövlətlərdən biridir. Azərbaycanda bütün dinlərə məxsus mədəniyyət abidələri qorunduğu halda, Ermənistanın işğalı altında olan torpaqlarımızda Azərbaycanın dini-mədəni abidələrinin dağıdıldığı iştirakçıların diqqətinə çatdırılıb. Eyni zamanda, daxili siyasət kimi, multikulturalizmin Azərbaycanın xarici siyasətinə təsirinə, bu təsirin xarici siyasətimizi əməkdaşlıq və dinlərarası dialoqu təşviq etməyə yönəltdiyinə toxunulub. Bu kontekstdə auditoriyaya “Bakı Prosesi” və bu proses çərçivəsində ölkəmizdə keçirilən mötəbər beynəlxalq tədbirlər barədə məlumat verilib.

Daha sonra auditoriyanın Azərbaycanın dünyəvi dövlət ənənələri, dini icmaların fəaliyyətinin tənzimlənməsi, ölkəmizdə dini və milli kimlik anlayışları, Azərbaycanın gələcəyə baxış strategiyası, “Bakı Prosesi” çərçivəsində Ermənistan və Azərbaycan arasında barışıq təşəbbüsləri və s. barədə suallarına aydınlıq gətirilib.

Sonda Friburq Universiteti tərəfdən mühazirənin təşkilatçısı olan professor Ansqar Yödikeyə “Azərbaycan multikulturalizmi” və “Azərbaycan multikulturalizminin ədəbi qaynaqları” kitabları hədiyyə edilib.

# Culfa rayonunun Qazançı kəndi abadlaşan kəndlərimiz sırasına daxil oldu







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: **“Naxçıvanda aparılan işlər çox yüksək qiymətə layiqdir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin”.**

Bu gün Naxçıvan Muxtar Respublikasında aparılan geniş quruculuq işləri Ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Yaşayış məntəqələrində həyata keçirilən tədbirlər həm də əhalinin rifah halının yaxşılaşmasına göstərilən qayğının və insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Bu il Culfa rayonunun Qazançı kəndində də müasir infrastruktur yaradılıb, kənd muxtar respublikanın abad yaşayış məntəqələri sırasına daxil olub.

## QAZANÇI KƏND TAM ORTA MƏKTƏBİNİN BİNASI İSTİFADƏYƏ VERİLİB

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 30-da Qazançı kənd tam orta məktəbinin yeni binasının açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Qazançı kənd tam orta məktəbinin direktoru Gültəkin Əliyeva çıxış edərək deyib ki, muxtar respublikanın tarixiliyi saxlanılmaqla bütün şəhər, qəsəbə və kəndlərində genişmiqyaslı quruculuq işləri aparılır. Bu gün müasir tədrisin tələblərinə uyğun qurulmuş Qazançı kənd tam orta məktəbi müəllim və şagirdlərin istifadəsinə verilir. Məktəbin son beş ildə nəticələri uğurlu olub, 26 məzun ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Yeni məktəb binasında yaradılan müasir şərait tədrisin daha yüksək səviyyədə təşkilinə imkan verəcəkdir. Gültəkin Əliyeva kənd sakinləri və pedaqoji kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq edib, gənc nəslin layiqli vətəndaş kimi yetişməsində bilik və bacarıqlarını əsirgəməyəcəklərini bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qazançı kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: **“Ölkəmizdə bütün sahələrlə yanaşı, məktəb işi də diqqət mərkəzindədir. Şagirdlərin ölkəmizin gələcəyinə hazırlanması sahəsində tədbirlər görülür, yeni məktəb binaları tikilir, maddi-texniki baza gücləndirilir, tədris prosesində yeni texnologiyalar tətbiq olunur. Məktəb işi sadəcə şagirdlərə təhsil verməkdən ibarət deyil. Məktəb hər bir ölkənin gələcəyini hazırlayır. Sağlam gələcək hazırlamaq üçün məktəbdə lazımi şərait yaradılmalı, müəllimlər gəncləri əsl vətəndaş kimi yetişdirməlidirlər”.**

Ali Məclisin Sədri Ümummilli liderimiz Heydər Əliyevin **“İnsanın cəmiyyətdə özünə yer tutması məktəbdən başlanır”,** - fikrini xatırladaraq deyib: **“Şagirdlərin gələcəkdə cəmiyyətdə layiqli yer tutması onların bu gün məktəbdə necə formalaşmasından və təhsil almasından asılıdır. Hər bir gənc özünə peşə seçməlidir. Çünki məktəbi bitirən gənc peşə sahibidirsə, onda o, cəmiyyət üçün də, ölkəsi və ailəsi üçün də yararlı vətəndaş olacaqdır. Bu gün Qazançı kənd tam orta məktəbində yaradılan şərait qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir. Müəllimlər şagirdlərə yaxşı təhsil verməli, gənclərimiz isə özlərini gələcəyə hazırlamalıdırlar”.**

Ali Məclisin Sədri deyib: **“Qazançı kənd tam orta məktəbinin nailiyyətləri vardır. Son illərdə ali və orta ixtisas məktəblərinə qəbulda məktəb 100 faizlik nəticə göstərib. Ali məktəblərə qəbul olmuş 23 gəncin 15-i müəllim peşəsini seçib. Tələbə adını qazanan məzunların içərisində yüksək bal toplayanlar da var. Həmçinin məktəbin şagirdləri Heydər Əliyev adına Hərbi Liseyə, orta ixtisas və peşə məktəblərinə də qəbul olunublar”.**

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür edib, onlara tədrisdə uğurlar arzulayıb və yaradılan şəraitlə tanış olub.

Ali Məclisin Sədri şagirdlərin idman yarışlarında iştirakının təmin olunması, şahmat dərslərinin tədrisində elektron lövhələrdən, kompüterlərdən və elektron dərsliklərdən istifadə olunması, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə ümumtəhsil məktəbləri arasında keçirilən nümunəvi və interaktiv dərslərin davam etdirilməsi barədə tapşırıqlar verib.

Müəllimlər otağında pedaqoji kollektivlə görüşən Ali Məclisin Sədri deyib: **“Məktəb binasında yaradılan şərait bütün fənlər üzrə tədrisin səmərəli təşkilinə imkan verəcəkdir. Artıq müəllimlər tədris zamanı heç bir çətinliklə qarşılaşmayacaqlar. Ona görə də şagirdlərə biliklər dərindən öyrədilməli, onların hazırlığına diqqət artırılmalıdır. Şagirdlər yalnız seçdiyi ixtisasları əhatə edən fənləri deyil, digər fənləri də bilməlidirlər”.**

Məktəbin müəllimi Günel Süleymanova minnətdarlıq edərək yaradılanlardan səmərəli istifadə edəcəklərinə, bilikli gənclər yetişdirməklə etimadı doğruldacaqlarına söz verib.

Məktəbin həyətində müəllimlər və şagirdlər üçün bufet tikilib, açıq idman qurğuları quraşdırılıb, abadlıq işləri aparılıb və yaşıllıqlar salınıb.

## QAZANÇI KƏND MƏRKƏZİ İSTİFADƏYƏ VERİLİB

Noyabrın 30-da Qazançı kənd mərkəzinin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Məlumat verilib ki, kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 44 yerlik zal yerləşir. Kitabxanada 7813 ədəbiyyat oxucuların istifadəsinə verilib.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədri Lalə Cəfərova deyib ki, ərazi ilk təşkilatın 105 üzvü vardır. Onlardan 38-i gənc, 54-ü isə qadındır. Bu gün Qazançı kəndi müasirləşib, abadlaşıb. Kənddə yaşamaq, işləmək və qurub-yaratmaq üçün hər cür şərait var. Müasir infrastruktur yaradılıb, memarlıq abidəmiz olan Qazançı körpüsü bərpa olunub. Tarix göstərdi ki, müstəqil Azərbaycanın bir inkişaf yolu vardır. O da Ümummilli lider Heydər Əliyevin yoludur. Bu yol bugünkü və gələcək inkişafımızın qarantıdır. Qazançı kənd sakinləri də Ulu öndərimizin yoluna sadiqdirlər. Lalə Cəfərova yaradılan şəraitə görə partiya üzvləri və sakinlər adından minnətdarlıq edib.

Ali Məclisin Sədri ölkəmizdə Ulu öndər Heydər Əliyevin yolunun davam etdirildiyini və bu yolun bəhrəsi kimi Qazançı kəndinin müasir yaşayış məntəqəsinə çevrildiyini bildirib, səmərəli fəaliyyətinə görə Yeni Azərbaycan Partiyası Qazançı kənd ərazi ilk təşkilatının sədri Lalə Cəfərovaya təşəkkür edib.

Qazançı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İbrahim Aslanov deyib ki, kənddə əhali əsasən heyvandarlıq, əkinçilik, quşçuluq və arıçılıqla məşğul olur. Bu il 291 hektar sahədə dəmyə üsulu ilə taxıl əkilib. Hazırda kənddə 4 ailə fermer təsərrüfatı vardır. Yaradılan şərait fərdi təsərrüfatların daha da genişlənməsinə imkan verir.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının sayının artırılması, kənddə qədim təsərrüfat sahələrinin, xüsusilə üzümçülüyün bərpa olunması ilə bağlı tapşırıqlar verib.

Həyətdə abadlıq işləri aparılıb, yaşıllıq salınıb, müasir suvarma və işıqlandırma sistemi çəkilib.

## KƏNDDƏ MÜASİR HƏKİM AMBULATORİYASI FƏALİYYƏTƏ BAŞLAYIB

Noyabrın 30-da Qazançı kəndində həkim ambulatoriyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib, tibbi xidmətin təşkili ilə maraqlanıb.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması, hamilə qadınların sağlamlıqlarının qorunması, peyvənd işinin vaxtında aparılması, rayon mərkəzi xəstəxanası tərəfindən kəndə həkim briqadalarının göndərilməsi, uşaqların və yaşlıların qeydiyyata alınması və tibbi müayinəsi barədə tapşırıqlar verib.

Binada fərdi istilik sistemi quraşdırılıb.

## QAZANÇIDA XİDMƏT MƏRKƏZİ İSTİFADƏYƏ VERİLİB

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qazançı kəndində xidmət mərkəzinin də açılışını edib.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri sakinlərlə görüşüb.

Kənd sakinləri Füzuli Əliyev, Zakir Həsənov, Yavər Əliyev və Akif Səyyadov minnətdarlıq ediblər.

Ali Məclisin Sədri sakinləri təbrik edərək deyib: **“Bu gün Qazançı kəndi abad yaşayış məntəqəsinə çevrildi. Kəndlərin inkişafı, müasirləşməsi, abadlaşması ölkəmizin inkişafı deməkdir. Bu işlərin həyata keçirilməsində məqsəd ondan ibarətdir ki, insanlarımız rahat yaşasın. Yaradılan şərait sakinlərə öz işlərini rayon mərkəzinə getmədən kənddə həll etməyə imkan verəcəkdir. Şagirdlərin yaxşı təhsil alması üçün məktəb, sakinlərin sağlamlığının qorunması üçün lazımi avadanlıqlarla təchiz olunmuş ambulatoriya, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Culfa şəhərindəki, Naxçıvan şəhərindəki məktəblərdə yaradılan tədris şəraiti Qazançı kənd tam orta məktəbində də vardır. Həmçinin kənd daimi rabitə xidməti, sürətli internet, su, təbii qaz və elektriklə təmin olunub”.**

Ali Məclisin Sədri deyib: **“Qazançı qədim tarixə malik olan yaşayış məntəqəsidir. Tarixi mənbələrdə də bu öz əksini tapıb. Görkəmli rus şair-diplomatı Qriboyedov öz xatirələrində Naxçıvan şəhərindən Haçadağa, oradan Qazançı kəndinə gəldiyini və buradan Qarabağa, Gəncəyə və Tiflisə getdiyini qeyd edir. Tariximizi qoruyub gələcək nəsillərə çatdırmaq bu gün qarşımızda duran əsas vəzifələrdəndir. Ona görə də kənddəki qədim birtağlı Qazançı körpüsü də bərpa olundu. Bu gün Qazançı kəndində əkinçilik, maldarlıq, heyvandarlıq və arıçılıq da inkişaf etdirilir. Dövlət ailə təsərrüfatlarına köməklik göstərir, kreditlər verilir, istehsal olunmuş məhsulların bazarda satışına şərait yaradılır. Təmiz havaya, səfalı təbiətə və müasir infrastruktura malik olan Qazançı kəndində yaşamaq və işləmək üçün bütün imkanlar var. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, məskunlaşma artmalı, tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır”.**

## QAZANÇI KƏNDİNDƏ MƏRASİM EVİ TİKİLİB

Muxtar respublikanın kəndlərində quruculuq işləri aparılarkən sakinlərin rahatlığının təmin olunması vacib amil kimi götürülür. Mərasim evlərinin tikilməsi də bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Noyabrın 30-da Qazançıda mərasim evi də istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə maraqlanıb.

## QAZANÇI KÖRPÜSÜ TARİXİ-MEMARLIQ ABİDƏSİ BƏRPA OLUNUB

Yaxın Şərqin qədim ticarət mərkəzlərindən biri olan və Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvandakı körpülər tarixi-mədəni irsimizin bir parçasıdır. Karvan yollarını birləşdirən qədim körpülər memarlıq quruluşu və mühəndislik texnikası ilə seçilib, xalqımızın mədəni inkişafının göstəricisinə çevrilib. Muxtar respublikada tarixi abidələrin bərpası sahəsində görülən işlər qədim memarlıq abidələri olan körpüləri də əhatə edib.

Noyabrın 30-da Qazançı körpüsü tarixi-memarlıq abidəsi bərpadan sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov körpünün bərpadan sonrakı vəziyyəti ilə tanış olub.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtar respublika ziyalıları və elm adamları adından minnətdarlıq edərək deyib: **“Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi-mədəni irsimizin qorunub yaşadılması sahəsində həyata keçirdiyi tədbirlər, bu sahədə imzaladığı sərəncamlar mühüm elmi əhəmiyyətə malikdir. Bu gün Naxçıvanda tariximizə sahib çıxılır. Son illər 70-dən artıq abidəmiz bərpa olunub. XVII əsrin memarlıq abidəsi olan Qazançı körpüsünün bərpası da bu sahədə görülən işlərin davamı kimi elm adamlarının qarşısına mühüm vəzifələr qoyur”.**

Ali Məclisin Sədri muxtar respublikada bərpa olunmayan tarixi abidələrin müəyyənləşdirilməsi və onlarda bərpa işlərinin aparılması, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən Qazançı körpüsü haqqında tarixi mənbələrdən məlumatların toplanması və monoqrafiya şəklində nəşr olunması, Qazançı körpüsü haqqında materialların və fotoşəkillərin internetdə yerləşdirilməsi və tanıdılması barədə tapşırıqlar verib.

# Azərbaycanın media təmsilçiləri "Anadolu" Agentliyində olublar





Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə respublikanın aparıcı media təmsil-





çilərindən ibarət 15 nəfərlik nümayəndə heyətinin Türkiyənin paytaxtı Ankara şəhərinə səfəri davam edir.

Nümayəndə heyətinin növbəti görüşü "Anadolu" Agentliyində keçirilib. KİV rəhbərləri agentliyin ofisi, texniki imkanları və struktur bölmələri ilə tanış olublar. "Anadolu" Agentliyinin baş direktor müavini Metin Mutanoğlu təmsil etdiyi qurumun Azərbaycan KİV-ləri ilə əlaqələri və bu yöndə yeni planları barədə məlumat verib. M.Mutanoğlu "Anadolu" Agentliyi ilə "AzərTAC" Agentliyi arasındakı sıx əməkdaşlıq və müştərək proqramları nümunə göstərərək media qurumlarının əlaqəli çalışmasının hər iki ölkə üçün ciddi töhfələr verə biləcəyini qeyd edib. Görüş iştirakçıları arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi istiqamətində müzakirələr aparılıb.



Fondun icraçı direktoru, nümayəndə heyətinin rəhbəri Vüqar Səfərli media təmsilçilərinin Ankaraya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və Fondun fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli hər iki ölkənin media qurumları arasında münasibətlərin inkişaf etdirilməsi üçün təkliflərini səsləndirib.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin informasiya və mətbuat orqanları ilə iş sektorunun müdiri Cəmaləddin Quliyev, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Xalq" qəzetinin baş redaktoru Həsən Həsənov, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Teleqraf" Media qrupunun rəhbəri Aynur Camal Azərbaycan və Türkiyə KİV-ləri arasında əməkdaşlığın inkişaf etdirilməsi yolları barədə fikirlərini bölüşüblər.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin informasiya və mətbuat orqanları ilə iş sektorunun müdiri Cəmaləddin Quliyev, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Müşfiq Ələsgərli, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "Kaspi" qəzetinin baş redaktoru İlqar Hüseynov, "Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camal, "Mövqe" qəzetinin baş redaktoru Rasim Bayramov, "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, Fondun aparıcı məsləhətçisi Babək Məmmədzadə, Fondun informasiya texnologiyaları üzrə mütəxəssisi Mirsəid Ağayev daxildir.

Səfər proqramı dekabrın 1-də başa çatacaq.

# YAP Abşeron rayon təşkilatında yeni ərazi ilk partiya təşkilatı təsis edilib





Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatının Masazır qəsəbə 5 saylı orta məktəbdə ərazi ilk partiya təşkilatının təsis yığıncağı keçirilib.

Yığıncaqda çıxış edən YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev Yeni Azərbaycan Partiyasının ötən əsrin sonlarında ölkəmizdə meydana çıxan mürəkkəb siyasi situasiyadan, zamanın təxirəsalınmaz tələblərindən irəli gələrək Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yarandığını deyib.

B.Vəliyev vurğulayıb ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan YAP respublikamızın daim qüdrətlənməsinə, insanların sosial rifah halının yaxşılaşdırılmasına çalışıb. Bu, partiyanın siyasətində dövlətə, xalqa xidmətin öndə dayandığının təsdiqidir.

Sədr onu da qeyd edib ki, təşkilatın sıralarının artmasının ciddi səbəbləri var: **"YAP-ın bütün uğurlarının arxasında xalqın inamı və bu inamdan doğan dəstəyi dayanır. Azərbaycan xalqı Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün cənab Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP-a böyük etimad göstərir, inanır.**

**Onu da vurğulamalıyıq ki, partiyamız da gördüyü işlərlə, üzərinə götürdüyü missiya ilə xalqın inamını doğruldub. Yeni Azərbaycan Partiyası Azərbaycanın və ümumiyyətlə, regionun ən böyük və güclü siyasi partiyası kimi daim inkişaf edir".**

Qeyd edək ki, YAP Abşeron rayon təşkilatı cəmiyyətin aparıcı qüvvəsi olan gənclərlə də işini güclü qurub. Bunun nəticəsi olaraq gənclərin partiyaya axını sürətlənib, onların ictimai-siyasi proseslərdə fəallığı daha da artıb.

Sonra çıxış edən YAP Abşeron rayon təşkilatı sədrinin müavini X.Şabanova, müəllimlər Aytən Sultanova, Aynurə Bağırova və başqaları bildiriblər ki, partiya yarandığı gündən onun Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla həyata keçirilən əsas proqramı Azərbaycanda dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. Məhz buna görə də ümumxalq partiyasına çevrilən YAP ölkəmizin və regionun ən aparıcı siyasi qüvvəsidir.

Sonra təşkilati məsələlərə baxılıb, Səlim Məmmədov yeni təsis edilən ərazi ilk partiya təşkilatının sədri seçilib.

Sonda partiyaya daxil olmuş bir qrup şəxsə üzvlük vəsiqələri təqdim edilib.

# "Media və mənəvi dəyərlər" mövzusunda yazı müsabiqəsinin qalibləri mükafatlandırılıblar


























Noyabrın 30-da Bakıda "Media və mənəvi dəyərlər" mövzusunda konfrans və eyniadlı yazı müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə mətbuat nümayəndələri, qəzet redaktorları, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov konfransda çıxış edərək Fondun gördüyü işlər və müsabiqənin əhəmiyyəti barəsində danışıb. Bildirib ki, mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Milli ideologiyamız, tariximiz, dilimiz, dinimiz, mədəniyyətimiz, ədəbiyyatımız, dahi şəxsiyyətlərimiz, musiqimiz, muğamlarımız, folklorumuz milli-mənəvi dəyərlərimizdir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, "SƏS" Media qrupunun rəhbəri Bəhruz Quliyev Fondla mətbuatın birgə əməkdaşlığından danışıb və mətbuatın ictimai fikirdə, cəmiyyətdə oynadığı roldan bəhs edib. Bildirib ki, milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda bələdçi olub, müstəsna xidmətlər göstərib. Ən əsası suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıdan tələb olunan bu amalın - azərbaycançılıq ideologiyasının təbliğində mətbuatın üzərinə böyük məsuliyyət düşür.

Daha sonra "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli və digərləri çıxış edərək mövzu ilə bağlı fikirlərini bildiriblər. Vurğulanıb ki, gənclərimizin mənəvi-əxlaqi zəmində yazılmış yazılara böyük ehtiyacı var. Bu gün kütləvi informasiya vasitələri gənclərimizin milli dəyərlər zəminində tərbiyə olunmasında güclü vasitədir.

Sonda qaliblərin mükafatlandırılması mərasimi olub.

# Rusiyanın xarici işlər naziri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini Milanda müzakirə edəcək




Rusiyanın xarici işlər naziri Sergey Lavrov ATƏT Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) Milanda keçiriləcək iclasında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini müzakirə edəcək. Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) növbəti brifinqində XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

AZƏRTAC xəbər verir ki, M.Zaxarovanın sözlərinə görə, RF XİN-in başçısı ATƏT XİNŞ-in dekabrın 6-7-də Milanda nəzərdə tutulan 25-ci iclasında iştirak edəcək. O deyib: **"Münaqişələrin, o cümlədən Ukraynanın şərqindəki, Dnestryanı bölgədəki, Dağlıq Qarabağdakı münaqişələrin nizamlanmasına kömək göstərilməsində ATƏT-in səylərini, bu təşkilatın Balkanlarda fəaliyyətini və Cənubi Qafqazda sabitlik üzrə Cenevrə diskussiyalarında həmsədrliyini dəstəkləmək planlaşdırılır".**

M.Zaxarova vurğulayıb ki, RF XİN-in başçısı ikitərəfli görüşlər də keçirəcək. Bu görüşlərdə Dağlıq Qarabağ problemi ətrafında müzakirələr aparılacaq. O deyib: **"Dağlıq Qarabağ problemi daha konkret, tətbiqi məcrada müzakirə ediləcək. Əlbəttə, orada da bu istiqamətdə hər hansı konkret addımlar və təkliflər nəzərdə tutula bilər".**

# Azərbaycanda təhsilin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir



*Milli Məclisin deputatı Dilarə Cəbrayılova www.yap.org.az saytına müsahibə verib:*

**- Dilarə xanım, noyabrın 28-də Bakı Konqres Mərkəzində Azərbaycan müəllimlərinin XV qurultayı keçirildi. Qurultayın iştirakçısı kimi bu mötəbər tədbirin əhəmiyyətini və müzakirə edilən məsələlərin təhsil sahəsinin inkişafı kontekstində önəmini necə qiymətləndirirsiniz?**

- Noyabrın 28-də Bakıda keçirilən Azərbaycan müəllimlərinin XV qurultayında təhsilin inkişafı istiqamətində bir çox fundamental əhəmiyyətli məsələlər, o cümlədən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəyyənləşdirilmiş hədəflərə nail olunması istiqamətində əldə edilmiş uğurlar, XIV qurultaydan sonrakı müddətdə təhsil sistemində reallaşdırılmış tədbirlər və islahatlar müzakirə olundu, qarşıda duran yeni vəzifələr müəyyənləşdirildi. Ümumi təhsil, orta ixtisas və peşə təhsili müəssisələrindən 1400-ə yaxın, ali təhsil müəssisələrindən isə 200-dən çox nümayəndənin iştirakı ilə keçirilən Azərbaycan müəllimlərinin XV qurultayının ölkəmizdə təhsil sisteminin inkişafına mühüm töhfələr verəcəyinə əminlik ifadə olundu, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası, müəllimin nüfuzunun daha da artırılması ilə bağlı konkret təkliflər irəli sürüldü. Diqqətə çatdırıldı ki, ölkədə davamlı olaraq aparılan məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır.

Digər tərəfdən, qurultay çərçivəsində panel sessiyalarda çox mühüm və aktual məsələlər müzakirə predmetinə çevrildi. Bu istiqamətdə bir sıra məqamlara nəzər salmaq istərdim. Peşəyönümü işinin təşkili və peşə təhsilinin təbliği mövzusunda keçirilmiş sessiya ölkəmizdə peşə təhsili sisteminin inkişafının müzakirəsi və gələcək hədəflərin müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətli idi. Məlumdur ki, peşə təhsilinin maddi-texniki bazasının gücləndirilməsi və genişləndirilməsi istiqamətində dövlət tərəfindən davamlı olaraq məqsədyönlü addımlar atılır, həyata keçirilən tədbirlər səmərəli nəticələr verir. Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda peşə təhsili ilə bağlı xüsusi müddəalar öz əksini tapıb. Eyni zamanda, 2016-cı ildə Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması bu istiqamətdə qarşıya qoyulan hədəflərin gerçəkləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Çünki bu sahənin inkişafı ölkənin ixtisaslı kadrlara olan tələbatının ödənilməsi baxımından önəmlidir. Biz cəmiyyətdə bu sahəyə marağın davamlı olaraq artdığını müşahidə edirik. Peşə təhsili müəssisələri peşəyönümü işinin təşkilində və təbliğində yaxından iştirak edirlər.

Qurultayda "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin məzmunu", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Şagird nailiyyətlərinin qiymətləndirilməsi", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Müəllim və cəmiyyət", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin idarə olunması", "Ali təhsil: mövcud vəziyyət, perspektivlər", "Təhsildə innovasiyalar" mövzularında panel sessiyalarında da ölkəmizdə müvafiq sahələrin inkişafı istiqamətində görülən işlərdən danışıldı, qarşıda duran vəzifələr müəyyənləşdirildi. Düşünürəm ki, bəhs olunan istiqamətlərdə müzakirələr olduqca səmərəlidir və gələcəkyönümlü xarakter daşıyır.

**- Ümumiyyətlə, təhsil sahəsinin inkişafı Azərbaycan dövləti üçün prioritet məsələlərdən biridir. Dövlət tərəfindən bu istiqamətdə görülən işlər və aparılan islahatlarla bağlı nə deyə bilərsiniz?**

- Azərbaycanda mühüm prioritetlərdən biri kimi müəyyənləşdirilmiş təhsilin inkişafı istiqamətində davamlı işlər görülür, həyata keçirilən islahat xarakterli tədbirlər müsbət göstəricilərin əldə olunmasını təmin edir. Yeni Azərbaycanda hər bir sahədə müşahidə olunan dinamik inkişaf təhsil sektorunda da aşkar şəkildə nəzərə çarpır. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində, eləcə də müvafiq göstərişləri əsasında atılan addımlar, icra edilən Dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin meydana çıxmasını, yüksək nəticələrin qazanılmasını şərtləndirib.

Bu gün təhsilin bütün pillələrində - uşaq bağçalarında, məktəbdənkənar müəssisələrdə, orta məktəblərdə, kolleclərdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil, əlavə təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılır. Təhsil sahəsində həyata keçirilən islahatlar - təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi xüsusi qeyd edilməlidir. Təsadüfi deyil ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunub.

**- Təhsil infrastrukturunun yenilənməsi istiqamətində həyata keçirilən işlərin əhəmiyyəti və nəticələri barədə fikirləriniz nədən ibarətdir?**

- Təhsil infrastrukturunun yenilənməsi daim dövlətin diqqət mərkəzindədir və bu istiqamətdə görülən məqsədyönlü işlər ardıcıl xarakter daşıyır. Təsadüfi deyil ki, son 5 ildə ölkədə 500-dən çox, 2003-2018-ci illər ərzində isə 3500-dək məktəb binası tikilib və ya əsaslı təmir olunub ki, bunun da nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb.

Ümumiyyətlə, son 15 ildə məktəb tikintisinə dair bir neçə Dövlət Proqramı qəbul edilib, eyni zamanda, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilib. Regionların, Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı, eləcə də yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı Dövlət proqramlarında məktəb tikintisinə dair geniş müddəalar öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsil müəssisələrinin infrastrukturunun yenilənməsinə geniş yer ayrılıb. Sözügedən Dövlət proqramları çərçivəsində son 15 il ərzində Bakıda və şəhərətrafı qəsəbələrdə, həmçinin regionlarda 3 mindən çox məktəbin tikilməsi və ya əsaslı təmir edilməsi ayrıca qeyd edilməlidir.

Təhsil infrastrukturunun yenilənməsi istiqamətində Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi işləri xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, Heydər Əliyev Fondu bir çox sahələrdə səmərəli layihələr həyata keçirməklə yanaşı, təhsilin inkişafı istiqamətində də mühüm təşəbbüslərlə çıxış etmiş, bu sahədə genişmiqyaslı işlər reallaşdırmışdır. Bu baxımdan, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını diqqətə çatdırmaq gərəkdir. Bu proqramda respublikamızın rayon və şəhərlərində yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, təhsil ocaqlarının əsaslı təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi kimi məsələlər öz əksini tapıb və qarşıya qoyulan məqsədlərə müvafiq olaraq həyata keçirilən tədbirlər səmərəli nəticələr verib.

**- Dilarə xanım, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasını və bu istiqamətdə əldə edilən nailiyyətləri necə dəyərləndirirsiniz?**

- Azərbaycan dövləti təhsilin dünya təhsil sisteminə inteqrasiyasını diqqət mərkəzində saxlayır və bu istiqamətdə davamlı tədbirlər, islahatlar həyata keçirilir. Ümumiyyətlə, ölkəmizdə təhsil sahəsində reallaşdırılan islahatlar beynəlxalq miqyasda da yüksək qiymətləndirilir və nüfuzlu reytinq agentliklərinin hesabatlarında öz əksini tapır. Bəllidir ki, 2018-ci il üçün "Qlobal Rəqabətlilik Hesabatı"nda 140 ölkə arasında 69-cu yerdə qərarlaşan Azərbaycanın mövqeyi 12 indikatordan 9-u üzrə yaxşılaşıb. Təhsil indikatorları üzrə ciddi irəliləyişə nail olunması, Azərbaycanın göstəricilərinin dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olması xüsusi əhəmiyyətə malikdir. Bəhs olunan qurultayda təhsil naziri Ceyhun Bayramovun da qeyd etdiyi kimi, təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan bacarıqlar indeksi üzrə ölkəmiz ümumilikdə 54-cü yerə, bu kateqoriyanın tərkib hissəsi olan rəqəmsal bacarıqlar üzrə 15-ci, tədrisdə tənqidi düşüncə üzrə 27-ci, bacarıqlı işçilər tapmaq asanlığı üzrə 31-ci, məzunların bacarıqları üzrə 32-ci, ibtidai təhsildə müəllim-şagird nisbəti üzrə 48-ci yerə yüksəlib.

Digər tərəfdən, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın müvəffəqiyyətlə icra olunması, bu günlərdə isə yeni "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasını sürətləndirən çox mühüm amillərdir. Prezident İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunda **"Bilik iqtisadiyyatı"na keçid və ölkənin modernləşməsi üçün həlledici amil kimi insan kapitalının inkişafını təmin edəcək "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrasına başlanılmasından beş il keçir. Bu müddətdə ölkəmizdə müasir təhsil quruculuğu istiqamətində uğurlu addımlar atılmış və Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası sürətlənmişdir",** - deyə vurğulanıb.

Bunlarla yanaşı, təhsil sahəsində müxtəlif proqramların icra olunması dünya təhsil sisteminə inteqrasiyanın çevik və səmərəli xarakter daşımasında mühüm rola malikdir. Bundan əvvəl Erasmus proqramı Avropa ölkələri ilə müəllim-tələbə mübadiləsi həyata keçirilib və bu, ölkədə ali təhsilin inkişafına öz təsirini göstərən mühüm amillərdən biri olub. Hazırda isə Erasmus+ proqramı çərçivəsində Şərq Tərəfdaşlığı ölkəsi olan Azərbaycan ali təhsil müəssisələri birgə magistratura proqramları, Kredit mobilliyi (keçmiş "Erasmus Mundus"), Potensialın gücləndirilməsi layihələri (keçmiş "Tempus"), Jan Mone Proqramı, Bilik Alyansları, Strateji Tərəfdaşlıq və Sektor Bacarıqları (müəyyən şərtlər ilə) kimi imkanlardan istifadə edəcək.

Bütövlükdə, ölkəmizdə təhsilin inkişafı ilə bağlı müxtəlif proqramların uğurla həyata keçirilməsi və ardıcıl islahatların aparılması çox mühüm nəticələrin, nailiyyətlərin əldə edilməsinə səbəb olub. Bütün bunlar isə Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasını təmin edən və sürətləndirən mühüm amillərdir.

# Həyata keçirilən məqsədyönlü siyasət sayəsində Azərbaycan beynəlxalq birliyin layiqli üzvünə çevrilib



Müasir dövrdə ölkələrin, xalqların siyasi, iqtisadi, humanitar və digər müstəvilərdə qarşılıqlı əməkdaşlığı ilə bağlı çağırışların aktuallığı daha da artıb. Bu baxımdan Azərbaycanın reallıqları diqqətəlayiqdir. Belə ki, milli maraqlara əsaslanan və ölkənin hərtərəfli inkişafını hədəfləyən məqsədyönlü daxili siyasət həyata keçirən Azərbaycan, eyni zamanda çoxvektorlu fəal xarici siyasət kursuna malikdir. Bunun nəticəsidir ki, respublikamız qısa müstəqillik tarixində istər əksər xarici dövlətlərlə, istərsə də beynəlxalq təşkilatlarla sıx münasibətlər qurmağa nail olub və qlobal miqyasda ölkəmizin nüfuzu əhəmiyyətli dərəcədə artıb.

## RESPUBLİKAMIZ SƏMƏRƏLİ REGİONAL ƏMƏKDAŞLIQ PLATFORMALARININ YARADILMASINA XÜSUSİ SƏY GÖSTƏRİR

Xalqımızın nəsildən-nəslə ötürülən dəyərlər sistemində qonşuluq amili müstəsna yer tutur. Həyata keçirdiyi məqsədyönlü siyasətində daim cəmiyyətin sosial sifarişlərini əsas götürən müstəqil Azərbaycan dövləti də xarici siyasət kursunda səmərəli regional əməkdaşlıq platformalarının yaradılmasına xüsusi səy göstərir. Bu gün Azərbaycan regionda işğalçı Ermənistan istisna olmaqla bütün qonşu dövlətlərlə strateji tərəfdaşlıq münasibətlərini uğurla inkişaf etdirir.

Türkiyə və Azərbaycan dünyada bir-birinə ən yaxın olan ölkələrdir. Qardaş Türkiyə Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə cavab olaraq Ermənistanla bütün siyasi-iqtisadi əlaqələri dayandırıb, eyni zamanda, 1993-cü ildən etibarən bu ölkə ilə sərhədlərini bağlayıb. Öz növbəsində Azərbaycan da ermənilərin Türkiyəyə qarşı irəli sürdükləri ərazi və "soyqırımı" iddialarına layiqli cavab verilməsində daim qardaş ölkənin yanındadır.

Türkiyə ilə Azərbaycanı eyni zamanda müxtəlif enerji və nəqliyyat layihələrində fəal təmsilçilik, ortaq maraqlar birləşdirir. Cari il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin, oktyabrın 19-da isə İzmir şəhərində Azərbaycanın investisiya qoyuluşu hesabına inşa edilən "Star" neft emalı zavodunun istifadəyə verilməsi çox haqlı olaraq iki qardaş ölkənin dostluğunun, həmrəyliyinin əlaməti kimi dəyərləndirilir.

Qonşu dövlətlər olan Azərbaycanla Gürcüstanın siyasi və iqtisadi maraqları üst-üstə düşür. Gürcüstan regionda respublikamızın moderatorluğu ilə reallaşdırılan enerji və nəqliyyat layihələrində yer alır. Azərbaycan 2012-ci ildən bəri Gürcüstana sərmayə qoyan xarici ölkələrin arasında liderliyini qoruyub saxlayır.

Azərbaycanla İran arasında münasibətlərin möhkəmlənməsi regional əməkdaşlığın dərinləşməsinə yaxşı nümunədir. Son illərdə iki ölkə arasında ticarət dövriyyəsinin 70 faizədək artması məmnunluq doğurur. Eyni zamanda, qarşılıqlı investisiya qoyuluşu genişlənir. Enerji sektorunda əməkdaşlıq isə Azərbaycanla İran arasında münasibətlərin ənənəvi istiqamətidir. İki ölkə həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal əməkdaşlıq edirlər.

Azərbaycan-Rusiya əlaqələri çoxşaxəli səciyyə daşıyır. Buraya həm siyasi, həm də iqtisadi və humanitar sferalar daxildir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, iki ölkə arasında ikitərəfli iqtisadi əlaqələr çox uğurla inkişaf edir. Hazırda iki ölkənin ayrı-ayrı regionları arasında əlaqələr kifayət qədər yüksək səviyyədədir. Qeyd edək ki, Rusiya Federasiyasının 70-dən artıq subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır.

Azərbaycan regional əməkdaşlıq siyasəti çərçivəsində MDB ölkələri ilə sıx münasibətlər qurub. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, 2018-ci ilin birinci yarısında ölkəmizin MDB məkanı ilə ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faizdən çox artıb.

## AZƏRBAYCANIN AVROPA ÖLKƏLƏRİ VƏ ABŞ ÜÇÜN ÖNƏMİ GETDİKCƏ ARTIR

Cənubi Qafqaz coğrafiyasının lider dövləti səviyyəsinə yüksələn Azərbaycanın Avropa ölkələri və ABŞ üçün də önəmi getdikcə artır. Amerika Birləşmiş Ştatları respublikamızın terrorizmə qarşı mübarizə tədbirlərində fəal iştirakını yüksək qiymətləndirir. Eyni zamanda, bu ölkə Azərbaycanın moderatorluğu ilə reallaşdırılan enerji və nəqliyyat layihələrinə daim yüksək dəstək nümayiş etdirir.

Avropa İttifaqı ilə Azərbaycan perspektivdə münasibətlərin daha da dərinləşməsinə siyasi iradə ortaya qoyurlar. Bunu tərəflərin yeni Saziş üzərində işləməsi bir daha təsdiqləyir. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün çox önəmlidir. Belə bir diqqətəlayiq faktı da vurğulamaq yerinə düşər ki, Azərbaycanla Avropa İttifaqına daxil olan 9 dövlət arasında strateji tərəfdaşlıq haqqında saziş imzalanıb.

Azərbaycanla Avropa ölkələri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin və bu səfərlər çərçivəsində imzalanan yeni müqavilələrin böyük rolu var. 2018-ci ilin əvvəlindən bəri Prezident İlham Əliyevin Böyük Britaniyaya, Fransaya, Xorvatiyaya səfərləri baş tutub. Kifayət qədər məhsuldar keçən bu səfərlər çərçivəsində Azərbaycanın imkanları təqdim olunub və bir sıra önəmli sənədlər imzalanıb.

Avropa məkanında yerləşən dövlətlərin yüksək səviyyəli rəsmiləri də Azərbaycana müntəzəm səfərlər edirlər. 2018-ci ilin iyul ayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarella Azərbaycanda səfərdə olub. Vurğulamaq yerinə düşər ki, İtaliya Azərbaycanın əsas xarici ticarət tərəfdaşıdır. Belə ki, 2017-ci ildə ölkəmizin xarici ticarət dövriyyəsində İtaliya 21 faiz paya malik olmaqla ilk yerdə qərarlaşıb və bu ilin ötən dövrü ərzində də liderliyini qoruyub saxlayıb.

Azərbaycanla Avropanın önəmli dövləti olan Almaniya arasında siyasi münasibətlər yüksək səviyyədədir. Eyni zamanda, iki ölkə arasında iqtisadi sahədə əlaqələr də getdikcə genişlənir. Hazırda Azərbaycan Almaniyanın regionda ən böyük ticarət tərəfdaşıdır. Ekspertlərin qənaətinə görə, siyasi nüfuzu və iqtisadi çəkisi baxımından bütün dünyada önəmli mövqe tutan Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin Cənubi Qafqaza səfəri çərçivəsində cari il avqustun 25-də Bakıya gəlməsi iki ölkə arasında əlaqələrin inkişafına yeni təkan verəcək.

Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsinə verdiyi töhfələr müsəlman ölkələri tərəfindən yüksək dəyərləndirilir.

Azərbaycan özünün çoxvektorlu xarici siyasətində İslam aləmi ilə sıx münasibətlər qurulmasına xüsusi önəm verir. Əlamətdar haldır ki, müstəqil Azərbaycanın ilk diplomatik missiyaları məhz müsəlman ölkələrində fəaliyyətə başlayıb, dövlətimiz qısa zamanda bütün müsəlman dünyasını birləşdirən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvünə çevrilib. Azərbaycan İslam həmrəyliyinin möhkəmlənməsinə töhfə verən İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi, İƏT-ə Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyası kimi yeni qurumların yaradılmasının təşəbbüskarı kimi çıxış edib. Eləcə də ölkəmiz müsəlman dünyası ilə əlaqələrin genişləndirilməsinə xidmət edən ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatları qurub. Bu çərçivədə həyata keçirilən bir çox layihələr Azərbaycanla İslam ölkələri arasında qarşılıqlı münasibətlərin möhkəmlənməsinə xidmət edir.

Azərbaycan dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsinə davamlı olaraq səy göstərir. Respublikamızda Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2017-ci ildə elan olunan "İslam Həmrəyliyi İli" çərçivəsində çoxsaylı tədbirlər həyata keçirilib. 2017-ci ilin birinci yarısında Bakıda əksər İslam ölkələrinin təmsilçilərinin iştirakı ilə baş tutan IV İslam Həmrəyliyi Oyunlarının başa çatmasından xeyli müddət ötsə də, bu möhtəşəm tədbirlə bağlı təəssüratlar hələ də yaddaşlarda qalmaqdadır. Azərbaycan İslam aləminə böyük rəğbətinin ifadəsi olaraq Oyunların yüksək səviyyədə keçməsinə nail olmaq üçün hər şeyi etdi.

Azərbaycanın dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə verdiyi töhfələr müsəlman ölkələri tərəfindən yüksək dəyərləndirilir. Təsadüfi deyil ki, 2018-ci il Azərbaycanın daha bir şəhəri, Bakıdan sonra bu dəfə Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı elan olunub. Bu, bütün müsəlman aləminin Azərbaycana olan böyük hörmətinin təzahürüdür.

## BEYNƏLXALQ TƏŞKİLATLAR RESPUBLİKAMIZIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ DƏSTƏK NÜMAYİŞ ETDİRİRLƏR

Müstəqil Azərbaycanın uğurlu xarici siyasətindən və bunun nəticəsində qlobal miqyasda nüfuzunun artmasından söhbət açarkən ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığının dərinləşməsini də xüsusi qeyd etmək lazımdır. Bu gün müstəqil Azərbaycan öz haqq səsini üzv olduğu BMT-nin, AŞPA-nın, İƏT-in və digər mötəbər beynəlxalq təşkilatların tribunalarından bütün dünyaya çatdırır. Respublikamızın qısa müstəqillik tarixində - 2011-ci ilin oktyabrında 155 dövlətin dəstəyini qazanaraq BMT TŞ-nin qeyri-daimi üzvü seçilməsi son dərəcə qürurverici haldır. Bu, bütün dünyada ölkəmizə olan böyük inamın və hörmətin ifadəsidir.

Müstəqil Azərbaycan beynəlxalq birliyin digər nüfuzlu təşkilatı olan Qoşulmama Hərəkatında da uğurla fəaliyyət göstərir. Xatırladaq ki, 2018-ci ildə Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük bir konfransı keçirildi. Qarşıdan gələn 2019-cu ildə respublikamız Qoşulmama Hərəkatına sədrlik edəcək və Bakıda qurumun Zirvə görüşü keçiriləcək.

Respublikamız eyni zamanda, NATO-nun etibarlı tərəfdaşıdır. Azərbaycan əsgərləri 2002-ci ildən NATO qüvvələri tərkibində Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirak edirlər. Bu yaxınlarda isə Azərbaycan Əfqanıstandakı hərbi kontingentini 120 hərbçiyə qədər artırıb. Qeyd edək ki, NATO Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirakını təqdir edərək yüksək qiymətləndirir.

Azərbaycan ikitərəfli və çoxtərəfli platformalarda, eləcə də nüfuzlu beynəlxalq təşkilatlarda yüksək fəallıq nümayiş etdirərək həm də ölkəmizin əsas problemi - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırır. Azərbaycan ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda o prinsipdən çıxış edir ki, beynəlxalq hüquq həmçinin Dağlıq Qarabağ münaqişəsinin həllinə də şamil edilməlidir. Qeyd edək ki, indiyədək dünyanın aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı bir çox qərar və qətnamələr qəbul ediblər. Belə ki, BMT-nin Təhlükəsizlik Şurası Ermənistan ordusunun işğal edilmiş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul edib. ATƏT, AŞPA, İƏT, Avropa İttifaqı və digər beynəlxalq qurumlar da ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən sənədləri imzalayıblar.

**Mübariz ABDULLAYEV**

**"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün"**

# UNEC Meksika universitetləri ilə əməkdaşlıq edəcək



Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xuan Rodrigo Labardini Flores UNEC-də olub.

Rektor, professor Ədalət Muradovla görüşdə UNEC-in xarici universitetlərlə əməkdaşlığından, o cümlədən ikili diplom, mübadilə proqramlarından bəhs olunub. UNEC-in beynəlxalq əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu bildirən rektor Meksikanın aparıcı universitetləri ilə birgə tədqiqatların aparılması, müəllim-tələbə mübadiləsi, MBA proqramı və digər istiqamətlərdə əməkdaşlıq etməyin hər iki tərəf üçün əhəmiyyətli olacağını vurğulayıb. Rektor UNEC Ekstern Mərkəzinin yaradıldığına diqqət çəkərək, meksikalı tələbələrin burada təhsil almaları üçün geniş imkanların mövcud olduğunu vurğulayıb.

Meksika hökumətinin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini bildirən R.Labardini iki ölkə arasındakı hərtərəfli dostluq və əməkdaşlıq münasibətlərinə toxunub. Səfir Azərbaycan və Meksika arasında bütün sahələrdə, o cümlədən elm və təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsi məqsədilə qarşılıqlı fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkib. Diplomat UNEC-də tələbələrə Meksika mövzusunda seminar keçəcəyini bildirib və onlar üçün səfirlikdə istehsalat təcrübəsinin təşkil olunacağını qeyd edib.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə UNEC-lə Meksikanın aparıcı universitetləri arasında əməkdaşlıq memorandumunun imzalanması barədə razılıq əldə olunub.

# Həştərxan vilayəti Tatarıstandan Azərbaycana göndərilən məhsulların çatdırılmasına kömək etməyə hazırdır



Həştərxan vilayətində açılmış İran ticarət evi və Azərbaycan işgüzar mərkəzi artıq fəal iş aparır. Vilayətin qubernatoru səlahiyyətlərini müvəqqəti icra edən Sergey Morozov jurnalistlərə bildirib ki, Həştərxan vilayəti Tatarıstandan Xəzəryanı dövlətlərin bazarlarına göndərilən məhsulların çatdırılmasına kömək etməyə hazırdır.

AZƏRTAC xəbər verir ki, Sergey Morozovun sözlərinə görə, Tatarıstana Həştərxan vilayəti vasitəsilə xarici bazarlara çıxış imkanı təklif edilir. S.Morozov Həştərxan vilayəti ilə Tatarıstan arasında əməkdaşlıq haqqında saziş imzalanandan sonra çıxış edərək deyib: **“Həştərxanda İran ticarət evi və Azərbaycan işgüzar mərkəzi işləyir, Bakıda isə Həştərxan işgüzar mərkəzi tikilir. Biz Azərbaycandakı həmkarlarımızla birgə dəmir yol yük qovşağı yaratmağı planlaşdırırıq. Siz yeni tərəfdaşlar axtarışında bu məkanlardan istifadə edə bilərsiniz”.**

# Azərbaycan Xarici İşlər Nazirliyi Bako Saakyanın Moskvaya səfəri ilə bağlı Rusiya XİN-in şərhinə münasibət bildirib



Rusiya Xarici İşlər Nazirliyinin şərhinin məntiqi ilə Bako Saakyan sanki Azərbaycanın işğal olunmuş ərazilərində gücdən istifadə və etnik təmizləmənin aparılması nəticəsində yaradılan qeyri-qanuni qurumun sözdə “rəhbəri” qismində görüşlər keçirdiyi Moskvaya deyil, Baykal gölünə istirahətə gedib. Şərhdə bildirilir ki, bu səfər Rusiya qanunvericiliyinə, yaxud mövcud beynəlxalq müqavilələrə və ya Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın vasitəçilik missiyasına zidd deyil.

Yenə də xatırlatmaq istərdik ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 1997-ci ildə imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilənin 5-ci maddəsində açıq şəkildə qeyd edilir: “Tərəflər separatçı hərəkatları dəstəkləməməyi öhdələrinə götürür və digər tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş ayrı-ayrı şəxslərin fəaliyyətini qadağan edir və qarşısını alır”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva KİV-ə açıqlamasında bildirib.

Azərbaycan XİN-in rəsmisi deyib:

- Bu baxımdan Rusiya Federasiyası Konstitusiyasının 15-ci maddəsinin 4-cü bəndini qeyd etmək məqsədəuyğun olardı: “Beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsipləri və normaları və Rusiya Federasiyasının bağladığı beynəlxalq müqavilələr onun hüquqi sisteminin ayrılmaz hissəsidir. Əgər Rusiya Federasiyasının bağladığı beynəlxalq müqavilələr qanunla nəzərdə tutulmuş qaydalardan fərqli müddəaları müəyyənləşdirirsə, o zaman beynəlxalq müqavilənin qaydaları tətbiq edilir”.

Rusiyanın vasitəçilik missiyasına gəldikdə, ATƏT-in Minsk qrupunun həmsədrlərinin mandatını müəyyən edən sənəddə aydın şəkildə deyilir: “Həmsədrlər öz fəaliyyətində ATƏT-in prinsipləri və normaları, BMT Nizamnaməsi, ATƏT forumlarının qərarları, o cümlədən 1992-ci il martın 24-də Nazirlər Şurasının qərarı, xüsusilə Budapeşt Sammitinin qərarı və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini rəhbər tutacaq”.

Həmçinin sual yaranır: əgər bu, həqiqətən Azərbaycan Respublikasının ərazisindən olan bir şəxsin Rusiya Federasiyasına (xatırladaq ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə uyğun olaraq Rusiya Federasiyası Dağlıq Qarabağ bölgəsini Azərbaycan ərazisi kimi tanıyır) “şəxsi” səfəridirsə, ona Rusiyanın dövlət sərhədindən keçmək üçün müvafiq, ilk növbədə, mənşə ölkəsinin - Azərbaycanın qanunvericiliyinə uyğun verilmiş etibarlı sənədin təqdim edilməsi ilə bağlı tələblər tətbiq olunubmu?

# Diaspor Komitəsinin uğurlu fəaliyyəti Orduxanı niyə narahat edir?

Azərbaycan dövlətinə və xalqına qarşı ardıcıl olaraq kampaniya aparan satqın şəbəkəsinin üzvü, Hollandiyada yaşayan Orduxan Teymurxan sosial şəbəkədə paylaşdığı sonuncu videosunda yenə də Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini, öz təbirincə, guya tənqid edib. Onun bu “canfəşanlığı” sual doğurmaya bilməz.

Gürcüstandakı Ermənistan səfiri Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələrinin bu ölkəyə səfərindən sonra rahatsız olduqlarını açıq şəkildə ortaya qoydu, tez Gürcüstanda əyalətlərə getdi. Belə faktlar Avropada da, başqa ölkələrdə də oldu. İndi də Orduxan.

Bu adam əlində guya əsas kimi bir neçə gün öncə Avropada Azərbaycan musiqisini təbliğ edən soydaşımız, uzun illərdir Hollandiyada yaşayan skripka ifaçısı və diaspor fəalı Balaş Əliyevin (Azəri) uzun sürən xəstəlikdən sonra 58 yaşında vəfat etməsini götürüb və buna görə Diaspor Komitəsini “günahlandırır”. Bu xəyanətkar ünsür Dövlət Komitəsini az qala dünyasını dəyişən azərbaycanlıların baiskarı kimi göstərir, hətta bir az da irəli gedərək iddia edir ki, guya musiqiçi Komitənin günahı ucbatından vəfat edib. Əslində isə, həqiqətlər Orduxanın növbəti dəfə yalan danışdığını sübut edir. Belə ki, bir neçə gün öncə Diasporla İş üzrə Dövlət Komitəsi azərbaycanlı musiqiçinin vəfatıyla bağlı nekroloq yazmışdı. Aldığımız məlumata görə, bununla bağlı Komitə başqa işlər də görüb. Elə isə xəyanətkar şəbəkənin üzvünü nə narahat edir ki, o, Diaspor Komitəsini hədəfə alır?

Görünür, Diasporla İş üzrə Dövlət Komitəsinin son dövrlər böyük uğurla həyata keçirdiyi fəaliyyət, xaricdə yaşayan soydaşlarımızın vahid amal və məqsəd uğrunda möhkəm birliyinin təmin olunması, azərbaycançılıq ideologiyasının geniş təbliğ olunması, komitənin soydaşlarımız tərəfindən təqdir olunan tədbirlərə imza atması Orduxanı və onun xidmət etdiyi ermənipərəst, anti-azərbaycançı mərkəzləri qıcıqlandırır. Çünki Komitə Azərbaycan dövlətinin, Azərbaycan xalqının maraqlarını ifadə edir. Dövlət Komitəsi məhz bu istiqamətdə fəaliyyət göstərir: şəffaflıq, kimliyindən, dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya eyni münasibət...

Bu yanaşma isə nə Orduxanı, nə də onun başbilənlərini qane edə bilər. Çünki Azərbaycanı istəməyən qüvvələrin dünya azərbaycanlılarının bütövlüyünə qarşı olacaqları kimsəyə sirr deyil.

Yeri gəlmişkən, əldə etdiyimiz məlumata görə, Avropadakı soydaşlarımız artıq Orduxanı azərbaycanlı kimi qəbul etmirlər. Bunu görən Orduxan və onun başbilənləri xeyli rahatsız olub, Diaspor Komitəsinin fəaliyyətindən əndişələniblər.

Səbəb aydındır: Dövlət Komitəsinin fəaliyyəti nəticəsində Orduxanlar ya olmayacaq, ya da yalnız milli maraqlara xidmət edəcəklər. Sonuncu variant isə odur ki, belələri bütün xalq tərəfindən Azərbaycanın düşməni kimi qəbul ediləcəklər. Elə Orduxan kimi. Necə ki, indi onu hamı öz xalqına düşmən kəsilmiş biri kimi tanıyır.

**Arif ƏSƏDOV**

# Vladimir Solovyov: Rusiya və Azərbaycan prezidentlərinin həyata baxışı və baş verən hadisələrə münasibətləri çox cəhətdən oxşardır



***Məlum olduğu kimi, Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov bu yaxınlarda Azərbaycana səfər edib. V.Solovyov AZƏRTAC-ın müxbirinə müsahibəsində həmin səfərin yekunları, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü və iki ölkənin jurnalistləri arasında əməkdaşlığın perspektivləri barədə danışıb.***

**- Vladimir Gennadiyeviç, bu günlərdə siz Azərbaycanda səfərdə olmusunuz. Həmin səfərin yekunları barədə nə deyə bilərsiniz?**

- Azərbaycana səfərimizin yekunları çox yaxşı oldu, çünki əvvələn, Azərbaycan Prezidenti ilə çox mühüm görüş oldu. İlham Heydər oğlu məni çox diqqətlə dinlədi və Özü çox maraqlı söhbətlər etdi. Düşünürəm ki, bu, həm Azərbaycanın, həm də qonşu ölkələrin jurnalistləri ilə əməkdaşlığın başlanğıcıdır. Cənab Prezidentlə görüşdə biz Xəzər regionunun və MDB-nin Jurnalist Təşkilatları İttifaqının yaradılması mövzusunu müzakirə etdik. Vaxtilə mənim sələfim bu mövzunu möhtərəm Heydər Əliyev ilə müzakirə etmişdi. Bu, çox vacib və maraqlı məsələdir. Ona görə ki, bu regionda vaxtilə Moskvada təhsil almış, rus dilində danışan və jurnalistlərin elə bir hərəkatında iştirak etmək istəyən həmkarlarımız var. Zənnimcə, biz çox sevinclə görüşər və ünsiyyətdə olarıq, ortaq mövzular taparıq, fikir mübadiləsi apararıq. Lap yaxın vaxtlarda biz həmkarlarımızla bərabər Afinada keçirilmiş “Aralıq dəniz - Qara dəniz regionunun jurnalist ittifaqlarının dialoqları” mövzusunda konqresin işində iştirak etmişik. Həmin konqresdə Beynəlxalq Jurnalistlər Federasiyası çərçivəsində jurnalistlərin subregional birlik və həmrəylik qrupunun yaradılması barədə qərar qəbul edildi. Bu, koalisiya komitəsinin rəhbərlik etdiyi 17 jurnalist ittifaqının birliyidir. Komitə Fransa, Yunanıstan, Portuqaliya, Fələstin və Rusiya jurnalistlər ittifaqlarının rəhbərlərindən ibarətdir. Jurnalistlərin Beynəlxalq Federasiyası bütün dünyada ən hörmətli, böyük jurnalist federasiyasıdır. Onun tərkibinə jurnalistlərin təxminən 187 birliyi daxildir. Onların Şərqlə praktiki əlaqəsi yoxdur. Biz onların Şərqə tərəf hərəkəti üçün aralıq pilləyik. Azərbaycanda daha sonra Xəzər dənizi barədə danışdıq. Bu, dənizlər mövzusunun bir növ davamı, yeni hərəkatın başlanğıcıdır.

**- Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sizi qəbul edib. Bu görüşdən təəssüratınız necə oldu?**

- Təəssüratım çox xoşdur. Görüş 15 dəqiqə olmalı idi, amma 40 dəqiqədən çox davam etdi. Prezidentə dedim ki, Azərbaycanda rus dilini necə qiymətləndirdiklərini, rus məktəblərinin necə inkişaf etdiyini, rus dilində mətbuatın necə sərbəst işlədiyini, Rusiyanın bütün telekanallarının translyasiya edildiyini bilirik. Bütün bunlar çox xoşagələn və vacibdir. Cənab Prezident dedi ki, O, Azərbaycan və Rusiya jurnalistlərinin ünsiyyət saxlaması ideyasını, əlbəttə ki, dəstəkləyir. O, belə ünsiyyətlərin tez-tez olmasını, Azərbaycanda, məsələn, staroverlərin necə yaşadığını, rus dilinin necə inkişaf etdiyini, Azərbaycan jurnalistlərinin necə işlədiklərini, respublikanın gözəlliklərini görmək üçün rusiyalı jurnalistlərin Azərbaycana press-turlarının və cavabında Azərbaycan jurnalistlərinin Rusiyaya səfərlərinin təşkil olunmasını təklif etdi. Mən bildirdim ki, Rusiyada, Soçidə jurnalistlərin “Vsya Rossiya” adlı böyük forumu keçirilir. 22-ci foruma Azərbaycan nümayəndələri də gəlmişdi, çünki bundan əvvəl biz həmkarımız, Rusiya Jurnalistlər İttifaqının katibi Rafael Hüseynov ilə birlikdə hörmətli səfir Polad Bülbüloğlunun qəbulunda olduq, bu foruma Azərbaycan nümayəndələrinin göndərilməsini ona təklif etdik. Zənnimcə, biz bu cür əməkdaşlığı inkişaf etdirəcəyik, Azərbaycandan olan həmkarlarımız bundan sonra da bizim forumlarda iştirak edəcəklər.

**- Siz Prezident İlham Əliyevlə görüşdən sonra demisiniz: Azərbaycan və Rusiya prezidentlərinin xarakterində oxşar cəhətlər var. Bu, hansı cəhətlərdir?**

- İlham Heydər oğlu peşəkar diplomat, Vladimir Vladimiroviç peşəkar hüquqşünasdır. Hər ikisinin Prezident vəzifəsində zəngin iş təcrübəsi var. Mənə belə gəlir ki, onların həyata baxışları və baş verən hadisələrə münasibətləri çox cəhətdən oxşardır. Bu oxşarlıq, o cümlədən, dünyada, planetdə iri aktorların qarşılıqlı münasibətləri ilə bağlıdır. Məncə, onlar baş verən proseslərə eyni şəkildə baxırlar.

**- Siz iki ölkənin KİV-ləri arasında gələcək əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?**

- Biz razılığa gəldik ki, yazda rusiyalı jurnalistlərin və mədəniyyət xadimlərinin böyük bir qrupu Azərbaycana Novruz bayramına gələcək. Mən də həmin qrupun tərkibində olmağa çalışacağam. Biz bu heyrətamiz bahar bayramının necə keçdiyini görmək istəyirik. Novruz günlərində Azərbaycanda olmağı çoxdan arzu edirdim. Bu barədə çox eşitmişəm. Bu, ilk addım olacaq. Azərbaycana səfər etməyə, həmkarlarımızla ünsiyyətdə olmağa ümid bəsləyirik. Bundan əlavə, biz Azərbaycan Mətbuat Şurası ilə əməkdaşlıq haqqında Memorandum imzaladıq. Həmkarlarımızla çox maraqlı söhbətimiz oldu və düşünürəm ki, bu ünsiyyəti inkişaf etdirəcəyik. Hesab edirəm ki, bizim əməkdaşlığımız həmin görüşdə imzalanmış Memorandumdan başlayacaq.

# Xaricdə yaşayan və Azərbaycan dövlətinə qarşı ardıcıl şəkildə kampaniya aparan şəbəkənin pul davası böyüyür

## *Antiazərbaycançı mərkəzlərdən verilən paranı bölə bilməyənlər bir-birlərini ən ağır sözlərlə təhqir edirlər*

Xaricdə yaşayan və Azərbaycan dövlətinə qarşı ardıcıl şəkildə kampaniya aparan şəbəkənin “fəal” üzvləri bir-birlərinə qarşı ifşaedici açıqlamalar verməkdədirlər. Həmin açıqlamalar illərdir xarici antiazərbaycançı mərkəzlərin verdiyi pullar qarşılığında ölkəmizə qarşı çirkin kampaniyalar aparan bu tiplərin əsl kimliklərini və məqsədlərini bir daha bütün çılpaqlığı ilə ortaya çıxarır. Bir sözlə, son olaylar adını “demokratiya carçısı” qoymuş ünsürlərin yalnız ermənipərəst mərkəzlərin sifarişlərini yerinə yetirdiklərini, eyni mənbədən maliyyələşdiklərini bir daha təsdiqləyir.

Çünki bu insanlar açıq şəkildə antimilli mərkəzlərin verdikləri pulları böldüklərini, şərik olduqlarını söyləyirlər. Hətta sonuncu “pul davası” da bölgünün “halal” şəkildə aparılmaması üstündə başlayıb. Belə ki, Məhəmməd Mirzəli sosial şəbəkədə Tural Sadıqlı haqda yazıb: **“Mən heç zaman bunu yazmazdım, özün məcbur etdin. Sən özünü ifşa etmək qərarına gəldin, davam elə. Mənim də deyəcəyim şeylər olacaq. Qrantı aldın, nə qrant verən təşkilatın adını açıqladın, nə aldığın qrantın məbləğini dedin, məni efirə çıxarıb məndən pul qazandın. Mən də sənin bu əməlinə qarşılıq olaraq öz videolarımı youtubdan sildirdim. Mən bu işləri pulsuz görən adamam, biz qrant gəlməsə belə birgə nəyəsə razılaşsaydıq, təbii ki, işlər görüləcəkdi. Amma məsələnin mahiyyəti budur ki, sən məndən istifadə etdin, “xalqın layihəsi”ni də qrant üçün etdin, mən bu dəqiqənin özündə belə “xalqın layihəsi”ni etməyə hazıram, pulsuz-parasız gəl edək, digər səhifələri də çağıraq. Bir də ki, elə yazmısan ki, yanımıza çəkdik, filan etdik. Mən öz işimi özüm həyata keçirmişəm”.**

Vurğulayaq ki, M.Mirzəli sosial şəbəkələrdə “şərikliyi” üzə çıxdığı T.Sadıqlını satqınlıqda da ittiham edib. O bildirib ki, Turalın Bakıdakı fəaliyyəti barədə danışmağa başlasa, təmiz batar: **“Almaniyada etdiklərini isə saxlayıram ikinci yazıya”.** Qeyd edək ki, məhz M.Mirzəlinin şikayəti əsasında “youtube”da “Azad söz” səhifəsindən şikayət edilib və səhifə bağlanıb.

Tural Sadıqlının yaydığı son video isə “pul davası”nın miqyasının daha da böyüdüyünə işarə edir. Məhəmməd Mirzəlini kəskin tənqid edən T.Sadıqlı bildirib ki, Məhəmməd satqın və ikiüzlü insandır: **“Məhəmməd deyir ki, guya onun bacısının ərini həbs ediblər. Ancaq bununla bağlı heç bir sənəd, məhkəmə qərarını paylaşmır, üzə çıxarmır. Bu, necə ola bilər? Və mənə mesaj yazıb ki, qoy yeznəm həbsdən çıxsın, sonra davam edərik. Bu adamın məqsədi siyasi oturum almaq idi deyə bir ara fəallaşmışdı, Avropada oturumu aldı, sonra sakitləşdi. Daha sonra ailəsini bura gətirmək üçün hökuməti söydü və anasını bura gətirdi. İndi də deyir ki, qoy bir az sakit dayanım, yeznəm həbsdən çıxsın”.**

T.Sadıqlı daha sonra Məhəmməd Mirzəlini savadsız və cahil adam adlandırıb: **“Bu adamın danışığından da bilinir ki, heç bir savadı, dünyagörüşü yoxdur. Yalnız söyüş söyməklə nəyəsə nail olmaq istəyirdi, hamı da bizi qınayırdı ki, niyə bu adama efir verirsiz. Biz, sadəcə, ona dəstək olmaq istədik, o da belə etdi”.**

T.Sadıqlı canlı yayımda Mirzəlinin videogörüntüsünü də göstərib və deyib ki, həyat yoldaşı da ona şərəfsiz deyir: **“Mən, sadəcə olaraq, sizə videonu göstərəcəm və özünüz hər şeyi başa düşəcəksiz. Məhəmməd canlı yayımda deyir: şərəfsiz sözü söyüş deyil, evdə həyat yoldaşım da mənə şərəfsiz deyir”.**

Beləliklə, bu açıqlamalar, daha dəqiq desək bir-birlərinin ünvanına işlətdikləri təhqirlər bəhs edilən ünsürlərin hansı “əqidəyə” sahib olduqlarını bir daha üzə çıxarır. Yəni bu açıqlamalar da xarici anti-Azərbaycan dairələrin birbaşa nəzarəti altında və maliyyəsi ilə fəaliyyət göstərən, sifariş yerinə yetirənlərin yeganə məqsədinin daha çox para qazanmaq və mənimsəmək olduğunu növbəti dəfə təsdiqləyir.

**Pərviz SADAYOĞLU**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az


# Regionlarda yaşayış məntəqələrinin qazlaşdırılması işi uğurla davam edir

## *Bu ilin sonuna qədər ölkə üzrə qazlaşdırma səviyyəsi 95 faizi ötəcək*



Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanda həyata keçirilən siyasət bütün sahələrin tərəqqisinə səbəb olub. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işlər xüsusi önəm kəsb edir. Məhz bu proqramlar çərçivəsində ötən 15 il ərzində regionlarda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, həmçinin bölgələrdə istər qazlaşdırma, istər elektrik enerjisi ilə təminat, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində mühüm addımlar atılıb.

Son illərdə Azərbaycanın güclü infrastruktur təminatına malik ölkəyə çevrilməsi istiqamətində görülən işlər qazlaşdırma sahəsində də mühüm uğurların əldə edilməsinə səbəb olub. 2004-cü ildən ötən dövr ərzində Azərbaycanda qazlaşdırma, demək olar ki, iki dəfəyə yaxın artıb. Artıq proses indiyədək qazlaşdırılmayan və yaxud müəyyən səbəblərdən qaz təminatı dayandırılan kəndləri və kiçik yaşayış məntəqələrini də əhatə edir. Cari ildə regionlarda yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələr isə yüksək səviyyədə icra edilir.

Qeyd edək ki, bu günlərdə mətbuata açıqlamasında "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyev bildirib ki, Prezident İlham Əliyev "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunları"na həsr olunmuş konfransda ölkənin qazlaşdırılması ilə bağlı verilmiş tapşırıqların icrası istiqamətində görülən işləri qənaətbəxş qiymətləndirib. Qazlaşma proqramına əsasən, bu il ərzində respublikanın regionlarında 42 inzibati rayon üzrə 79 yaşayış məntəqəsinin, o cümlədən Tərtər rayonunun cəbhə bölgəsindəki 8 yaşayış məntəqəsinin, Ağdam, Ağcabədi və Sabirabad rayonlarında məcburi köçkünlərin məskunlaşdığı 4 qəsəbənin qazlaşdırılması həyata keçirilməlidir. Ə.Hacıyev deyib: **"Ölkə başçısının müvafiq Sərəncamına əsasən, yaşayış məntəqələrinin qazlaşdırılması ilə əlaqədar SOCAR-a bu il üçün 100 milyon manat vəsait ayrılıb. Biz fəaliyyətimizi Azərbaycan Prezidentinin ölkə üzrə qazlaşdırma səviyyəsinin 95 faizə çatdırılması barədə verdiyi tapşırığın icra olunması istiqamətində qurmuşuq. Artıq noyabrın 1-nə olan göstəricilərə görə, ölkə üzrə qazlaşdırma səviyyəsi 95 faiz icra olunub. Cari ilin sonuna kimi isə qazlaşdırma səviyyəsi 95,7 faizi ötəcək. Yanvar-oktyabr aylarında 99 yaşayış məntəqəsi təbii qazla təmin edilib".**

O qeyd edib ki, yeni qazlaşdırılan bütün yaşayış məntəqələrində şəbəkənin qurulması "birpilləli" tənzimləmə sistemi əsasında aparılıb. Bu da hər bir abonentin fərdi qaz tənzimləyicisindən istifadə etməsinə və istehlakçılara verilən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Ümumilikdə, 2009-cu ildən bu günə kimi aparılmış işlərin nəticəsi olaraq 51 min 406,8 kilometr uzunluğunda yeni qaz kəmərləri quraşdırılıb, 9 min 310,3 kilometr uzunluğunda qaz kəmərləri əsaslı təmir edilib, 1514 yaşayış məntəqəsinə təbii qaz verilib.

Onu da qeyd edək ki, bu ilin noyabr ayında da bir sıra yaşayış məntəqələrinin qazlaşdırılması tədbirləri həyata keçirilib. Bununla cari il ərzində qazlaşdırılan yaşayış məntəqələrinin sayı 100-ü ötüb. Faktlara diqqət yetirək. Məlum olduğu kimi, məcburi köçkünlərin sosial problemlərinin həlli dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Elə bu məqsədlə dövlət qayğısı ilə əhatə olunan məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində görülən işlər uğurla davam etdirilir. Noyabrın 19-da Sabirabad rayonunun Rüstəmli kəndi ərazisində Zəngilan rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı qəsəbəyə təbii qazın verilməsi sakinlərin böyük sevincinə səbəb olub. Bu məqsədlə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Bildirilib ki, 161 fərdi evdən ibarət olan qəsəbənin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 10 574 metr müxtəlif diametrli polietilen və metal borularla daşıyıcı, həmçinin paylayıcı qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Tədbirdə çıxış edən qəsəbə sakinləri və ictimaiyyət nümayəndələri yaşayış məntəqəsinə təbii qazın verilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən Respublika ərazisində qaz təchizatı sisteminin yenidən qurulması, uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin yenidən mavi yanacaqla təmin edilməsi, həmçinin kənd və qəsəbələrin qazlaşdırılması istiqamətində görülən məqsədyönlü tədbirlərin davamı olaraq, noyabrın 19-da Kürdəmir rayonunun Qarasu kəndinə təbii qazın verilməsi kənd sakinlərinin də sevincinə səbəb olub. Bu məqsədlə keçirilən tədbirdə bildirilib ki, ümumilikdə 656 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 3 006 metr müxtəlif diametrli polietilen və ümumi uzunluğu 47 181 metr müxtəlif diametrli metal borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "birpilləli" tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Noyabrın 21-də isə Masallı rayonunun Tatyanoba və Güllütəpə kəndlərinə ilk dəfə təbii qazın verilməsi təmin olunub. Bu münasibətlə keçirilən tədbirdə qeyd olunub ki, ümumilikdə 784 fərdi evdən ibarət olan kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 5 804 metr müxtəlif diametrli polietilen və ümumi uzunluğu 37 072 metr müxtəlif diametrli metal borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Noyabrın 21-də həmçinin Oğuz rayonunun Muxas kəndinə də təbii qaz verilib. Qeyd edək ki, 278 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 22 min 140 metr olan müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı və paylayıcı, həmçinin məhəllədaxili qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Həmin gün Goranboy rayonunun Yəhərçi Qazaxlar kəndinə də təbii qaz verilib. Bu münasibətlə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Bildirilib ki, 150 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 10 890 metr müxtəlif diametrli metal və polietilen borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Noyabrın 22-də isə Goranboy rayonunun Goranlı və Həmənli kəndlərinə də təbii qaz verilib. Bu münasibətlə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbirdə qeyd olunub ki, ümumilikdə 178 fərdi evdən ibarət olan kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 18 106 metr müxtəlif diametrli metal və polietilen borularla daşıyıcı, həmçinin məhəllədaxili qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Onu da qeyd edək ki, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən ölkə başçısı cənab İlham Əliyevin tapşırığına uyğun olaraq sərhədyanı kəndlərin təbii qazla təmin olunması istiqamətində də işlər davam etdirilir. Cari ildə ucqar kəndlərin qazlaşdırılması məqsədi ilə hazırlanmış qazlaşdırma proqramına uyğun olaraq məhz Gədəbəy rayonunun Ermənistanla sərhəddə yerləşən Şınıx bölgəsi adlanan ərazisinin mərhələli şəkildə qazlaşdırılması da nəzərdə tutulub. Dağlıq relyef olduğundan texnikanın çətinliklə işlədiyi ərazilərdə qaz borularını işçilərin əlləri ilə həmin ərazilərə daşımasına, hava şəraitinin qeyri-sabit yağıntılı keçməsinə baxmayaraq, artıq görülən işlərin xeyli hissəsi tamamlanaraq yaşayış məntəqələrinin əksəriyyətində sayğac quraşdırma işləri aparılıb.

Noyabrın 22-də isə Gədəbəy rayonunun Sonalar, Hacılar, Mormor və Cücanlı kəndlərinə təbii qazın verilməsi sakinlərin böyük sevincinə səbəb olub. Bu məqsədlə keçirilən tədbirdə bildirilib ki, ümumilikdə 222 fərdi evdən ibarət kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 33 683 metr müxtəlif diametrli polietilen və metal borularla daşıyıcı və paylayıcı qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "birpilləli" tənzimləmə sistemi tətbiq edilib. Bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Bundan əlavə, Gədəbəy rayonunun Şınıx bölgəsində Əyridərə, Qaravəlilər, Məmmədcəfərli, Dördlər, Qasımlı, Motudərə, eləcə də rayonun Çaldaş və Səbətkeçməz kəndlərində qazlaşdırma işləri son tamamlanma mərhələsindədir. Tezliklə qeyd olunan yaşayış məntəqələrinə də təbii qazın verilişi təmin olunacaq. Qeyd olunan bölgədə yerləşən kəndlərə təbii qazın çəkilişi əhalinin həyat şəraitinin yaxşılaşmasına və ekologiyanın qorunmasına xidmət edəcək.

**Nardar BAYRAMLI**

# "Koroğlu" operası yenə də tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb

## *Səhnə əsərinin budəfəki təqdimatı Xalq rəssamı, Dövlət mükafatı laureatı Tahir Salahovun 90 illik yubileyinə həsr edilib*









Aparıcı sənət ocaqlarımızdan olan Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı hər zaman olduğu kimi, bu dəfə də klassik əsərlərin ən parlaq nümunələri ilə tamaşaçılarının görüşünə gəlib. Belə ki, teatrın 110-cu alqış mövsümündə dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasının təqdimatı əlamətdar hadisə kimi yaddaşlarda qalıb. Beləliklə, Üzeyir bəy musiqisinin vurğunları noyabrın 28-də bu möhtəşəm sənət əsərinin seyrinə dalmaq üçün teatrın salonuna toplaşmışdılar. İlk dəfə 1937-ci ildə Opera və Balet Teatrının səhnəsinə qoyulan şah əsərin budəfəki təqdimatı isə Xalq rəssamı, Dövlət mükafatı laureatı Tahir Salahovun 90 illik yubileyinə həsr edilmişdi.

Məlum olduğu kimi, Tahir Salahov "Koroğlu" operasının quruluşçu rəssamıdır. Belə ki, Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən biri sayılan bu operanı həm də Tahir Salahovun monumental və zəngin səhnə tərtibatı, dekorasiyaları bəzəyir. Bayram ab-havalı gecədə teatrın aparıcı solistləri - Xalq artistləri Fidan Hacıyeva, Əli Əsgərov, Əkrəm Poladov, Əməkdar artistlər Fərid Əliyev, İlahə Əfəndiyeva, Cahangir Qurbanov, Əliəhməd İbrahimov, Tural Ağasıyev, solistlərdən Taleh Yahyayev, Fəhmin Əhmədli və Nurlan Namazov rol alıblar. Opera isə Əməkdar artist Əyyub Quliyev tərəfindən idarə olunub.

Məlumat üçün bildirək ki, "Koroğlu" operasında monumental, kütləvi xor və rəqs səhnələrində kəndlilərin surəti öz geniş əksini tapır. Rövşən-Koroğlu, Nigar, Həsən xan əsərin əsas personajlarıdır. Bu dəfəki təqdimatda əsərin qəhrəmanı Koroğlu obrazını Əməkdar artist Fərid Əliyev canladırır. Koroğlu mərd, igid sərkərdə olmaqla yanaşı, həm də aşıqdır. Buna görə də musiqidə aşıq üslubu qabarıqdır və Koroğlunun aşıq mahnıları bunun ən bariz nümunəsidir.

Əməkdar artist İlahə Əfəndiyevanın canlandırdığı Nigar obrazı isə öz həqiqi, real cizgilərinə və zərifliyinə görə bəstəkarın yaratdığı qadın obrazları qalereyasında önəmli yer tutur. Nigar Koroğlunu dərin məhəbbətlə sevən bir qızdır. O həm də onun cəsur, qorxmaz məsləkdaşı, xanların zülmünə qarşı haqq səsini ucaldan mübarizə yoldaşıdır.

Qeyd edək ki, Paytaxt sakinləri ilə yanaşı, xarici qonaqların da qatıldığı konsert proqramı maraqla qarşılanıb. Beləliklə, Azərbaycan xalqının qüdrətini, azadlıq mübarizəsini, igidliyini əks etdirən opera böyük uğurla başa çatıb. Sonda tamaşaçılarla dolu olan zal uzun müddət ayaq üstə sənətçiləri alqışlayıb.

**Müşfiqə BAYRAMLI**

# "Bakcell"dən universitet tələbələri üçün maraqlı aksiya

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi olan Bakcell şirkəti özünün yeni "DaimOnline" tarif paketlərini abunəçilərinə tanıtmaq məqsədilə universitet tələbələri üçün maraqlı aksiya təşkil edib.




Belə ki, 28-30 noyabr tarixlərində keçirilmiş aksiya çərçivəsində Bakcell Azərbaycan Tibb Universitetində xüsusi "DaimOnline" stendi quraraq universitet tələbələrinə "Green Box", "İnsta Print" və digər maraqlı oyunlar və əyləncələrdə iştirak edib müxtəlif hədiyyələrə sahib olmaq imkanı verib. Stenddə təşkil edilmiş maraqlı aksiyada iştirak etmiş yüzlərlə tələbə həmçinin yeni "DaimOnline" tarif paketləri barədə ətraflı məlumat əldə ediblər.

Qeyd edək ki, bu kimi aksiyaların ölkəmizin digər universitetlərinin tələbələri üçün də təşkili planlaşdırılır.

Gənclərin daha çox sosial şəbəkələr və mesajlaşma tətbiqetmələrindən istifadə etməyə üstünlük verdiyini nəzərə alaraq, Bakcell şirkəti bir müddət əvvəl yeni "DaimOnline" paketlərini təqdim edib. Üç variantda və müvafiq olaraq 6, 10 və 20 manat aylıq abunə haqqı ilə təklif olunan yeni tarif paketləri sayəsində istifadəçilər limitsiz "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi ilə yanaşı qiqabaytlarla internet və bol-bol şəbəkədaxili dəqiqələrdən yararlana bilirlər. Limitsiz "WhatsApp", "Facebook" və "Instagram" imkanı təqdim edən yeni "DaimOnline" tarif paketlərini istifadəyə verməklə, Bakcell gənc abunəçiləri limitsiz ünsiyyət üçün tam sərbəstliklə təmin edib. Bu yeni tariflər sayəsində gənclər daim onlayn olmaq imkanı əldə ediblər.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan Bakcell müasir rabitə xidmətləri istifadəçilərinə yenilənmiş, rahat və yenilikçi tariflər, məhsullar və xidmətləri təklif etməyə davam edəcək.

Bakcell şirkətinin yeni "DaimOnline" tarifləri və digər sərfəli və innovativ təkliflər barədə daha ətraflı məlumat almaq üçün www.bakcell.com səhifəsinə və yaxud "Bakcell"in rəsmi "Instagram" və "Facebook" səhifələrinə daxil olun.

# "Bakcell"dən sosial şəbəkə istifadəçiləri üçün müsabiqə

bakcell

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti sosial şəbəkələrdən aktiv istifadə edən abunəçiləri üçün maraqlı müsabiqə keçirib.

Noyabr ayının 21-də start götürmüş müsabiqəyə qatılmaq üçün abunəçilər "Bakcell"in "Facebook" və "İnstagram"dakı rəsmi səhifələrində keçirilən səsvermədə baxmaq istədikləri filmə səs verməli, həmin filmin sıra nömrəsini şərhdə qeyd etməli, "Bakcell" səhifəsini və müsabiqə barədə postu bəyənib paylaşmalı idilər.

Müsabiqədə iştirak etmiş yüzlərlə abunəçidən 75 nəfər qalib www.random.org saytı vasitəsilə təsadüfi qaydada müəyyən edilib. Qaliblər ən çox səs toplamış filmə 2 bilet qazanıblar.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası əhalinin bütün təbəqələrinin tələb və ehtiyacları nəzərə alınmaqla dünyanın aparıcı şirkətlərinin və yerli bazarın tələblərinə əsaslanır.

Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.

# "Nar" "BakuTel-2018" sərgisində iştirak edəcək

"Nar" 4-7 dekabr tarixlərində keçiriləcək 24-cü "BakuTel-2018" Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisində iştirak edəcək. Mobil operator hər il olduğu kimi, bu il də ənənəvi keçirilən sərgidə özünün ən son yeniliklərini nümayiş etdirəcək.




Dörd gün ərzində davam edəcək sərgidə "Nar" Azərbaycan telekommunikasiya bazarında ilk dəfə tətbiq etdiyi, istənilən məkanda və vaxtda smartfonlarda 100-ə qədər seçilmiş yerli, regional və beynəlxalq televiziya kanallarına giriş imkanı verən "Nar TV" tətbiqini, 4G şəbəkəsinin əhatə etdiyi hər yerdə 30-dan artıq cihazı eyni anda internetə qoşa bilən naqilsiz "Nar Wi-Fi" ruterini təqdim edəcək. "Nar" stendinin ziyarətçiləri "Nar TV" tətbiqi və "Nar Wi-Fi" ruteri ilə əyani tanış olmaqla yanaşı, ilk dəfə sınaqdan da keçirə biləcəklər.

Sərgi iştirakçıları, eyni zamanda, ölkədaxili danışıq dəqiqələri ilə bol internetin daxil olduğu 6 müxtəlif "Full" paketləri haqqında məlumatlar alacaqlar. Qonaqlar virtual reallıq oyunu vasitəsilə "Nar" 4G sürətini hiss edə biləcəklər.

Sərgi günlərində "Nar" stendində texnoloji yeniliklərlə yanaşı, əyləncəli yarışlar, müsabiqələr, maraqlı oyunlar da keçiriləcək. Sərginin keçiriləcəyi günlərdə "Nar" stendinə yaxınlaşan insanlar müxtəlif hədiyyələr əldə etməklə yanaşı, müsabiqədə iştirak edib müasir smartfon - "Samsung Galaxy Note 9" qazana bilərlər. Qeyd edək ki, müsabiqənin qalibi sərginin sonuncu günü elan ediləcək.

Mobil operator hər kəsi 4-7 dekabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək 24-cü beynəlxalq "BakuTel-2018" -Telekommunikasiya və informasiya texnologiyaları sərgisindəki "Nar" stendinə dəvət edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU